RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 42 (9497) 24 FEVRAL 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin "yaşıl dünya" missiyası

## COP29 sammitində dünya Azərbaycanın qlobal böhranla mübarizə modelinə şahidlik edəcək

COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Azərbaycan Prezidentinin digər sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən, Təşkilat Komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP29-la bağlı Azərbaycandan böyük gözləntilər var, həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir. Bu da Təşkilat Komitəsinin tərkibinin bir qədər də genişləndirilməsini şərtləndirib.

Sərəncama nəzər yetirdikdə aydın şəkildə görünür ki, Təşkilat Komitəsində gender balansı tam təmin olunub ki, bu da Prezidentin qadınların cəmiyyətdəki roluna olan diqqət, etimad və hörmətinin göstəricisidir.

Ümumiyyətlə isə bu sahədə dünyada vətəndaş cəmiyyəti çox aktivdir, ona görə Təşkilat Komitəsinə vətəndaş cəmiyyətinin nümayəndələri də daxil edilib. Bu işə onlar da öz töhfələrini verəcəklər.

COP29-da müzakirə olunacaq müasir çağırışlar, innovasiya məsələlərinin geniş müzakirə olunacağı nəzərə alınaraq, Təşkilat Komitəsində iqtisadiyyat, innovasiya sahəsində çalışan şəxslər də təmsil olunurlar.

Göründüyü kimi, ümumən əsas ideya Təşkilat Komitəsinin maksimum inklüzivliyinin təmin edilməsidir.

→ 6

## İqlim dəyişmələri ilə mübarizə güclənəcək

### Bakıda keçiriləcək COP29 sammitində yeni qlobal təşəbbüslər meydana çıxacaq

COP29 sammiti Azərbaycanın etibarlı tərəfdaş ölkə kimi dünyada açıq təşəbbüslərin açıq məkanına çevrilməsini şərtləndirməklə, gələcək yeni enerji proqramlarında bölgənin aparıcı sərmayə nöqtəsinə çevrilməsini də təmin edəcək. Bu Zirvə konfransı dünya ictimaiyyətinin diqqətinin iki həftə ərzində ölkəmizə və ölkəmiz vasitəsilə Cənubi Qafqaza yönəlməsinə imkan yaradacaq.

→ 6

## Bələdiyyələrin fəaliyyəti ilə bağlı hesabat dinlənilib

**Fevralın 23-də parlamentin növbəti plenar iclası keçirilib. Əvvəl cari məsələlərlə bağlı müzakirələr aparılıb. Parlamentin komitə sədri Zahid Oruc, deputatlar Elşən Musayev, Elman Nəsirov, Musa Qasımlı, Bəhruz Məhərrəmov, Elşad Mirbəşir oğlu, Sahib Alıyev, Vahid Əhmədov, Aydın Mirzəzadə, Vüqar Bayramov çıxış ediblər.**

Çıxışlarda Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı, burada Azərbaycanın dövlət suverenliyini və ərazi bütövlüyünü bərpa edən qalib lider kimi qarşılanan Azərbaycan Prezidentinin bir sıra ölkələrin dövlət başçıları ilə keçirdiyi görüşlərdən bəhs edilib. Münxendə Prezident İlham Əliyevin siyasi qətiyyəti sayəsində Azərbaycanla Ermənistan arasında danışıqların vasitəçisiz baş tutduğu bildirilib. Fransanın öz məkrli siyasətini davam etdirərək qərəzli mövqe nümayiş etdirdiyi pislənilib.

→ 3

## Dünyaya örnək olan Azərbaycan-Türkiyə münasibətləri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqın böyük etmadını qazanaraq növbəti dəfə dövlət başçısı seçildikdən sonra ilk rəsmi səfərini məhz Tükiyə Cümhuriyyətinə etməsi bir daha Azərbaycan və Türkiyə qardaşlığının tarixi ifadəsi oldu. Artıq onilliklərdir ki, belə rəsmi səfərlər, ölkələrimiz arasındakı münasibətlərin qürur doğuran xoş ənənəsinə çevrilib.**



Azərbaycan və Türkiyə qarşılıqlı əməkdaşlığının yüksək səviyyəsi hər iki ölkə üçün son dərəcə mühüm əhəmiyyəti ilə şərtlənir. Azərbaycan və Türkiyə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səyləri nəticəsində müttəfiq, strateji tərəfdaş olan, güclü iqtisadi, mədəni əlaqələrə malik iki ölkədir. Bu səfər proqramı çərçivəsində dövlət başçılarının səsləndirdikləri bəyanatlar, gələcəyə strateji baxışı əks etdirən fikirlər münasibətlərin ən yüksək həddinin, ikitərəfli əlaqələrin hazırkı yüksək səviyyəsinin məntiqi nəticəsidir.

### Qarşılıqlı güvən

Türkiyə Azərbaycanın müstəqilliyini tanımış ilk dövlətdir. 1992-ci ilin yanvarından isə ölkələrimiz arasında diplomatik münasibətlərin təməli qoyulub və həmin ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi fəaliyyətə başlayıb. Sonrakı illərdə - 1993-cü ildə Azərbaycanın İstanbulda, 2004-cü ildə Qarsda baş konsulluqları təsis edilib. Türkiyənin hazırda Azərbaycanın digər böyük şəhərlərindən Gəncədə və Naxçıvanda da baş konsulluqları fəaliyyətdədir.

Azərbaycan və Türkiyə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində dostluq və əməkdaşlıq münasibətlərinin ən yüksək nümunəsini ortaya qoyur. Ölkələrimizin təşəbbüsü və yaxından iştirakı ilə reallaşdırılan irimiqyaslı layihələr təkcə Azərbaycan və Türkiyənin deyil, ümumilikdə regionun inkişafında həlledici rol oynayır.

→ 5

## Azərbaycan erməni separatizminin baş qaldırmasına imkan verməyəcək

### Makronun təhriki ilə müharibə avantürasına qapılan Paşinyan Ermənistanı məhvə aparır

İrəvanın Makronun timsalında Qərb ağalarının əmri, qızışdırması ilə revanşa qapılaraq ağılsız addımlar atması, Fransanın verdiyi köhnə-külüş hərbi texnikalara güvənərək "Dəmir yumruq" vasitəsilə cəhənnəmə göndərilən erməni separatizmini xortlatmaq kimi murdar niyyətə düşməsi isə öz başında çatlayacaq.

→ 8

## Fransanın iddiaları tamamilə əsassızdır

Makron türk düşmənidir. O, artıq siyasi səhnədə karyerasını məhv etmiş dövlət başçısıdır. Fransa prezidenti ermənipərəst mövqeyi, qərəzli yanaşması və kolonialist mahiyyəti ilə siyasi cəhətdən tamamilə rəzil vəziyyətə düşüb. Təsadüfi deyil ki, Fransanın müstəmləkəçilik keçmişi, qanunazidd əməlləri məhz Makronun hakimiyyəti dövründə ifşa olunur. Bir daha sübuta yetirilir ki, Fransanın tarixi utancverici səhifələrlə doludur.

→ 8

## Fransa açıq-aşkar separatizmə dəstək verir

### Ermənistan isə yenə təhlükəli geosiyasi ambisiyaların alətinə çevrilib

Azərbaycanın geosiyasi və geocoğrafi mövqeyinin güclənməsi ölkəmizi bölgədə və dünyada söz sahibinə çevirir. Prezident İlham Əliyev fevralın 7-də keçirilmiş prezident seçkilərində əldə etdiyi böyük qələbədən sonra Azərbaycan parlamentində andiçmə mərasimində çıxışında qeyd etdiyi kimi, sarsılmaz daşları yerindən tərpətdik və sarsılmaz daşları yerindən tərpətdiyimiz üçün bizə qarşı hücumlar, təzyiqlər artacaq.

→ 8

## Fransanın məkrli siyasəti uğursuzluğa məhkumdur

Fevralın 21-də Parisdə keçirilən brifinqdə Fransa prezidenti Makron çıxışında qeyd etdi ki, İrəvan Fransanın Ermənistana dəstəyinə arxalana bilər. Qarabağ erməniləri "ən tez, maneəsiz və təhlükəsiz öz evlərinə qayıtmaq hüququnu almalıdırlar". Amma problemin olmadığı yerdə problem axtaran Fransa hökuməti otuz ildən çoxdur ki, Ermənistandan qaçqın düşən 200 mindən çox azərbaycanlının hüquqlarının bərpa edilməsinə əngəl olanları, onların dədə-baba torpaqlarına, doğma ocaqlarına qayıtmalarına şərait yaratmayanları "görmür".

→ 8

# Erməni vəhşiliyinin növbəti təzahürü

## Xocalıda kütləvi məzarlıq aşkar edilib

**İşğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması barədə fevralın 21-də Xocalı Rayon Prokurorluğuna məlumat daxil olub.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Prokurorluğun peşəkar əməkdaşları hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının ən azı 4 nəfər (onlardan 1 nəfərin azyaşlı, yəni 4-5 yaşlı şəxsə məxsus olması ehtimal edilir) şəxsə məxsus olması, onların işgəncələrə məruz qalması, əllərinin kəndirlə bağlanması və xüsusiyyətlərinə görə ən azı 25 il əvvəl basdırılması müəyyən edilib.

Hazırda hadisə yerinin tam müayinə olunması istiqamətində işlər davam etdirilir.

Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır.

Axtarış işləri tam yekunlaşdıqdan və müvafiq ekspertiza nəticələri müəyyən olunduqdan sonra ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.



# Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya

Əlahəzrət.

Yaponiyanın milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Yaponiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2024-cü il*

# S.M.Rzayevin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samir Musa oğlu Rzayev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2024-cü il*

# S.M.Rzayevin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samir Musa oğlu Rzayev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2024-cü il*

# "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq yaşayış sahələrinin tikintisi ilə məşğul olan subyektlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə **qərara alıram:**

"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 - "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 4.1.6-cı yarımbəndinə "dövriyyə" sözündən əvvəl "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahələrinin tikintisi məqsədilə dövriyyə vəsaitlərinin maliyyələşdirilməsi üçün alınmış kreditlər istisna olmaqla," sözləri əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş Əlavə 5 - "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 3.2-ci bəndinə (birinci halda) "miqdarında," sözündən sonra "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahələrinin tikintisi fəaliyyəti ilə məşğul olan sahibkara," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2024-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Tailand xalqı adından Sizə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və rifah diləyirəm.

Seçkilərdə inamlı qələbəniz Sizin rəhbərliyinizə və siyasətinizə xalqınızın etimadının bariz təsdiqidir. Biz ölkələrimiz arasında dostluq münasibətlərini və sıx əməkdaşlığı yüksək qiymətləndiririk. Əminəm ki, zati-alinizin dəstəyi ilə qarşıdakı illərdə Tailand-Azərbaycan dostluq münasibətləri və əməkdaşlığı daha da möhkəmlənəcəkdir.

*Hörmətlə,*

***Maha VAÇİRALONQKORN,***
***Tailandın Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə Tailand Krallığının Hökuməti və xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Əminəm ki, sizin davamlı liderliyiniz Azərbaycan Respublikasına və onun xalqına daha böyük firavanlıq və tərəqqi gətirəcək. Mənim hökumətim zati-alinizlə ölkələrimizin və xalqlarımızın qarşılıqlı mənafeyi naminə dostluq əlaqələrimizi daha da inkişaf etdirməkdə maraqlıdır.

Bu fürsətdən istifadə edərək, Sizə gələcək fəaliyyətinizdə davamlı uğurlar arzu edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Settxa TXAVİSİN,***
***Tailand Krallığının Baş naziri***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Oklahoma ştatı ilə Azərbaycan arasındakı Milli Qvardiya Dövlət Tərəfdaşlıq Proqramının uğurunu böyük qürur hissi ilə qeyd edirəm. Güclü əlaqələrimiz və iyirmi ildən artıqdır ki, birgə həyata keçirdiyimiz əməkdaşlıq təşəbbüslərimiz xüsusilə də mədəni dəyərlərin təbliğində və hərbçilərimizin bacarıqlarının artırılmasında mühüm irəliləyişlərə gətirib çıxarıb. Əməkdaşlığımızı daha da dərinləşdirmək və qarşılıqlı inkişafı təşviq etmək yolunda bundan sonra da birgə fəaliyyət göstərəcəyimizə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Con Kevin STİTT,***
***Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Qardaş Azərbaycan xalqının prezident seçkilərində Sizə bir daha etimad göstərməsini böyük məmnunluq hissi ilə qarşıladım.

Ulu Öndərimiz Heydər Əliyevin bu ali dövləti vəzifənizdə indiyədək müvəffəqiyyətlə davam etdirdiyiniz irsini daha da irəliyə aparacağınıza ürəkdən inanıram. Bu xüsusda seçkilərdə qazandığınız zəfər münasibətilə zati-alinizi ürəkdən təbrik edirəm.

Sizin liderliyinizlə Azərbaycan Ordusunun və xalqının göstərdiyi cəsarət və əzm nəticəsində Qarabağın işğaldan azad edilməsini sonsuz sevinc və qürur hissi ilə izləmişəm. Heç şübhəsiz ki, bu şanlı Zəfər bütün Türk dünyasının daha sıx birləşməsi istiqamətində dönüş nöqtəsidir.

Qarabağ Zəfəri göstərdi ki, Azərbaycan siyasi, iqtisadi və hərbi sahələrdə bölgədə lider ölkədir. Bundan sonrakı müddətdə həmin Zəfərin sülh müqaviləsi ilə taclandırılması problemlərin ortaq iradə və konstruktiv düşüncə ilə birdəfəlik həllinin mümkünlüyünü bütün dünyaya göstərəcəkdir.

Fürsətdən istifadə edərək, zati-alinizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə və ailənizə, bütün Azərbaycan xalqına əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Abdullah GÜL,***
***Türkiyə Respublikasının 11-ci Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident.

Prezident seçkilərində qələbəniz münasibətilə Sizə öz adımdan və Lyublyana şəhərinin rəhbərliyi adından səmimi təbriklərimizi çatdırıram.

Xalqın etimadını və inamını qazanaraq əldə etdiyiniz qələbə Sizin fədakarlığınızın, uğurlu liderliyinizin və Azərbaycan Respublikasının gələcəyi ilə bağlı baxışınızın göstəricisidir. Əminəm ki, Sizin növbəti səlahiyyət müddətiniz də rifah, nailiyyətlər və xalqın arzularının reallaşdırılması ilə əlamətdar olacaq. İnanırıq ki, bu yeni müddətdə də müdriklik və xeyirxahlıq Sizin fəaliyyətinizin əsas qayəsi olacaq.

Azərbaycan Respublikasının vətəndaşları ilə birlikdə mən də Sizin rəhbərliyinizlə əldə ediləcək bütün nailiyyətləri və gələcək inkişafı səbirsizliklə gözləyirəm. Odlar Yurdunda alovun heç vaxt sönməməsini arzulayıram.

Sizə uğurlar diləyirəm.

İstənilən zaman Lyublyana şəhərinə dəvətlisiniz.

*Hörmətlə,*

***Zoran YANKOVİÇ,***
***Sloveniya Respublikasının Lyublyana şəhərinin meri***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

On üzvü olan İqtisadi Əməkdaşlıq Təşkilatının ixtisaslaşmış agentliyi - Mədəniyyət İnstitutu Sizin liderliyinizi və Azərbaycan xalqına xidmətlərinizi yüksək qiymətləndirir. İnanırıq ki, Azərbaycan Sizin müdrik rəhbərliyinizlə daha da inkişaf edəcəkdir.

Azərbaycan təşkilatımızın üzvü olan ölkələrin inkişafına və inteqrasiyasına mühüm töhfə verir. Biz inanırıq ki, Azərbaycanın dəstəyi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında mədəni mübadilənin və əməkdaşlığın təşviqində kollektiv səylərimizi əhəmiyyətli dərəcədə gücləndirəcək.

Seçkilərdə inamlı qələbəniz münasibətilə Sizə bir daha səmimi təbriklərimi çatdırır, qarşıdakı illərdə də Azərbaycan hökuməti ilə sıx əməkdaşlığımıza ümidvarıq.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramlarımı qəbul edin.

***Saad XAN,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Mədəniyyət İnstitutunun prezidenti***

# Baş nazir Əli Əsədov Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşla görüşüb





Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 23-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin "bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib.

İki ölkə arasında əlaqələrin dövlət başçılarının səyləri nəticəsində strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı bildirilib.

Dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ilk rəsmi səfərini Türkiyə Respublikasına etməsinin önəmi qeyd olunub, bunun iki ölkə rəhbərliyi arasında bir ənənəyə çevrilməsindən məmnunluq ifadə edilib.

Eyni zamanda Azərbaycan-Türkiyə əlaqələrinin beynəlxalq təsisatlar çərçivəsində müvəffəqiyyətlə inkişaf etdiyi bildirilib, xüsusilə Türk Dövlətləri Təşkilatının regional və beynəlxalq gücə çevrilməsi yolunda atılan birgə addımların əhəmiyyəti vurğulanıb.

Tərəflər dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolunu qeyd edib, Milli Məclislə Türkiyə Böyük Millət Məclisi arasında qarşılıqlı faydalı əməkdaşlığı yüksək qiymətləndiriblər.

Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında quruma sədrliyin Türkiyədən Azərbaycana keçməsinin əhəmiyyətinə toxunan Ə.Əsədov Türkiyənin sədrliyi dövründə Assambleyanın beynəlxalq nüfuzunun daha da artdığını, qlobal sülh və inkişaf naminə parlamentlərarası əməkdaşlığın genişləndiyini bildirib.

Görüşdə, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinin ticarət-iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar, turizm və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 96** **QƏRAR** **Bakı şəhəri, 23 fevral 2024-cü il**

## "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi stimullaşdırılması məqsədilə Aparatın hesabına köçürülən büdcədənkənar vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 mart tarixli 86 nömrəli Qərarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi stimullaşdırılması məqsədilə Aparatın hesabına köçürülən büdcədənkənar vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 347; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 yanvar tarixli 38 nömrəli Qərarı) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Konstitusiya Məhkəməsində yeni təyin olunmuş hakim Fikrət Məmmədov kollektivə təqdim edilib

**Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinin yeni təyin edilmiş hakimi Fikrət Məmmədov kollektivə təqdim olunub.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə məhkəmənin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təqdimatına əsasən Milli Məclis tərəfindən Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin olunması münasibətilə Fikrət Məmmədovu təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Fərhad Abdullayev ölkəmizdə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlanmış hüquqi dövlət quruculuğundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sahəsində həyata keçirilən mütərəqqi islahatlardan, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsindən, konstitusiyanın aliliyinin təmin olunması və qorunması sahəsində atılan mühüm addımlardan bəhs edib.

Hakim Fikrət Məmmədov göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü ifadə edərək, hakimlik fəaliyyətində də səylərini əsirgəməyəcəyini bildirib.

# Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat yayıb

**Estoniya Parlamentinin (Riigikogu) Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı bəyanat yayıb.**

Ölkəmizin Estoniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, parlamentin rəsmi saytında yayılmış "Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib" başlıqlı bəyanatda deyilir: "Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir.

Biz 600-dən çox günahsız dinc sakinin, o cümlədən çox sayda uşaq, qadın və qocaların qətlə yetirildiyi Xocalı soyqırımı ilə bağlı Azərbaycan xalqının ağrısını bölüşürük.

Biz 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının işğalı zamanı azərbaycanlı dinc sakinlərə qarşı törədilmiş insanlıq əleyhinə cinayətləri qətiyyətlə pisləyirik. Bu kütləvi qətlin səbəbkarları ədalət qarşısında cavab verməlidirlər.

Etiraf edirik ki, regionun bütün ölkələrinin suverenlik və ərazi bütövlüyü, eləcə də beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı hüququ var. Biz Azərbaycan Respublikasına öz ərazisində davamlı sülhün bərqərar olması, inteqrasiya və yenidənqurma işlərində dəstəyimizi ifadə edirik".

## Milli Məclisin iclasında

# Bələdiyyələrin fəaliyyəti ilə bağlı hesabat dinlənilib





*Əvvəli 1-ci səh.*

Deputatlar Prezident İlham Əliyevin yenidən dövlət başçısı seçildikdən sonra ilk rəsmi səfərini, həmişə olduğu kimi, Türkiyəyə etməsini Azərbaycan-Türkiyə dostluğunun yüksək səviyyədə olduğunun göstəricisi kimi dəyərləndiriblər.

Millət vəkilləri ötən 20 ildə aparılan siyasət nəticəsində ölkəmizin geosiyasi mövqeyinin daha da güclənməsindən, regionda həyata keçirilən layihələrin əhəmiyyətindən danışıblar. Bildirilib ki, Azərbaycanın reallaşdırdığı neft-qaz layihələri regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verir.

1992-ci ildə Ermənistan tərəfindən törədilən Xocalı soyqırımının bəşəriyyətə və insanlığa qarşı yönəlmiş cinayət olduğunu deyən millət vəkilləri bildiriblər ki, Xankəndidə Azərbaycanın dövlət bayrağının dalğalanması, ölkəmizin bütün ərazisində suverenliyinin bərqərar edilməsi xalqımızın həyatında yeni mərhələnin başlanmasından xəbər verir.

Deputatlar Milli Məclisin Sədri Sahibə Qafarovanın Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasındakı Azərbaycanın milli maraqlarını müdafiə edən məzmunlu çıxışında səsləndirdiyi fikirləri də dəstəklədiklərini söyləyiblər.

Sonra parlamentin Sədri Sahibə Qafarova bildirib ki, iclasda 11 məsələ müzakirə olunacaq. O, gündəliyin ilk iki məsələsinin Milli Məclisin qərar layihələri olduğunu qeyd edib. Spiker diqqətə çatdırıb ki, gündəliyin birinci məsələsi Prezidentin təqdimatına əsasən, Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqındadır.

İclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələ barədə məlumat verib. Komitə sədri Fikrət Məmmədovun uzun illər uğurla fəaliyyət göstərdiyini, onun çalışdığı dövrdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinə töhfə verdiyini, ədliyyə orqanlarına rəhbərliyi dövründə parlamentlə səmərəli əməkdaşlıq etdiyini, ədliyyə orqanlarını beynəlxalq təşkilatlarda layiqincə təmsil etdiyini bildirib. Qeyd edilib ki, Fikrət Məmmədov Azərbaycan Respublikasının Əməkdar hüquqşünasıdır və onun peşəkar və təcrübəli hüquqşünas kimi Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə namizədliyinin verilməsi təqdirəlayiqdir.

Məsələ ilə bağlı müzakirələrdə deputat Qüdrət Həsənquliyev öz qeyd və təkliflərini səsləndirib.

Milli Məclisin Sədri Sahibə Qafarova tanınmış hüquqşünas, təcrübəli və səriştəli mütəxəssis olan Fikrət Məmmədovun bu çətin və məsuliyyətli vəzifədə uğurla fəaliyyət göstərəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin qərar layihəsi qəbul olunub.

Fikrət Məmmədov Prezident İlham Əliyevə bu mühüm vəzifəyə onun namizədliyini verdiyinə görə öz dərin təşəkkürünü ifadə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakiminin andını səsləndirib. O, bildirib ki, Ulu Öndərin müəllifi olduğu konstitusiyaya xidmət etmək şərəfli və məsuliyyətli vəzifədir. Fikrət Məmmədov Azərbaycanın ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz torpaqlarını işğaldan azad etdiyini və həmin ərazilərdə konstitusiyamızın hüquqi qüvvəsinin bərpa olunduğunu qeyd edərək, belə bir dövrdə konstitusiyanın aliliyinin qorunmasına xidmət etməyin əhəmiyyətli olduğunu söyləyib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, qanunvericiliyə uyğun olaraq, hər il Milli Məclis Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın məruzəsini dinləyir.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü ildə fəaliyyəti haqqında məruzəni təqdim edib. Ötən ilin ölkəmiz üçün çox mühüm əlamətdar hadisələrlə zəngin olduğunu deyən nazir müavini Vilayət Zahirov 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən tədbirlərdən söz açıb, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun ötən il suverenliyimizi tam təmin etməsinin tarixi əhəmiyyətinə toxunub. O, Prezident İlham Əliyevin müstəqil və uzaqgörən siyasəti sayəsində bütün sahələri əhatə edən genişmiqyaslı quruculuq işlərinin, davamlı tərəqqinin yerli demokratiyanın, bələdiyyə institutunun inkişafına da aid olduğunu söyləyib. Nazir müavini ötən il yerli özünüidarəetmə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı görülən tədbirlər, Ədliyyə Nazirliyinin bələdiyyələrə inzibati nəzarəti həyata keçirmək və onların fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, 2023-cü ildə inzibati nəzarət orqanına hüquqi ekspertiza üçün təqdim olunan bələdiyyə aktlarının sayı 8 faiz artaraq ilk dəfə 100 mini keçib. Bu aktların 96 faizinin qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Ümumilikdə inzibati nəzarət icraatı zamanı qanunvericiliyin tələblərinə zidd olan 3800-dən çox aktla bağlı qanunamüvafiq tədbirlər görülüb. Nazir müavini ötən ildə bələdiyyə fəaliyyəti ilə bağlı vətəndaşların, həmçinin şəhid ailələrinin, müharibə əlili və iştirakçılarının müraciətlərinin təmin edilməsi ilə bağlı görülən işləri diqqətə çatdırıb.

O, bələdiyyə vəsaitinin təyinatına uyğun istifadə olunması, bələdiyyə əmlakından istifadədə şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması istiqamətində həyata keçirilən qanunamüvafiq tədbirlərdən danışıb. Qeyd olunub ki, 14 min hektardan çox torpaq sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilib ki, bu da 2022-ci illə müqayisədə 1195 ha çoxdur.

İnzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar zamanı 30 halda ciddi qanun pozuntuları ilə bağlı toplanmış materiallar hüquqi qiymətin verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib. Həmin materiallardan artıq 15-i üzrə cinayət işi başlanılıb. 2023-cü ildə bələdiyyələrin 63 vəzifəli şəxsi inzibati məsuliyyətə cəlb edilib.

Nazir müavini deyib ki, 2023-cü ildə nazirlik tərəfindən bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək, onlara metodoloji yardım göstərilməsi ilə bağlı tədbirlər də davam etdirilib. Bələdiyyələrlə aparılan metodoloji işdə yerli büdcə gəlirlərinin artırılması məsələləri xüsusilə diqqətdə saxlanılıb. Nazirliyin metodiki köməyi ilə görülən işlər nəticəsində, son üç ildə yerli büdcə gəlirləri 12,4 milyon manat (35%), o cümlədən yerli vergilərdən daxilolmalar 6 milyon manat (43%) artaraq bələdiyyələrin gəlirləri 47,4 milyon manat səviyyəsinə yüksəlib. Nazir müavini beynəlxalq əlaqələrin genişləndirilməsinə, təcrübə mübadiləsinin aparılmasına və digər aktual məsələlərə dair görülən işləri diqqətə çatdırıb.

2024-cü ildə ölkəmizdə bələdiyyələrin yaranmasının 25 ilinin tamam olduğunu deyən nazir müavini bununla əlaqədar cari ildə aidiyyəti qurumların iştirakı ilə silsilə tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Nazir müavini çıxışının sonunda vurğulayıb ki, ümumilikdə 2023-ci il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin artırılmasına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və digər aktual məsələlərə həsr olunub.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məsələ ilə bağlı komitənin rəyini təqdim edib. Komitə sədri bildirib ki, 2023-cü ildə bələdiyyələr səmərəli fəaliyyət göstərib, proseslərdə aktiv iştirak ediblər. Qeyd olunub ki, ölkə Prezidenti andiçmə mərasimində bütün sahələrdə qarşıya qoyulan vəzifələr barədə, o cümlədən regional idarəetmə və yerliözünüidarəetmə ilə bağlı fikirlərini səsləndirib.

Siyavuş Novruzov bələdiyyələrlə bağlı müvafiq orqan tərəfindən lazımi tədbirlərin görüldüyünü, nəzarət mexanizminin həyata keçirildiyini bildirib. O, bələdiyyə mülkiyyətinə aid xəritələrin 95 faizinin hazır olduğunu söyləyib. Bələdiyyələrin statusu, habelə sayı ilə bağlı, bu qurumların birləşməsi, ayrılması, ləğv edilməsi məsələlərinə də toxunub. Həmçinin o, əhali sayına görə bələdiyyələrin formalaşdırılması, böyük bələdiyyələrin yaradılması, bələdiyyələrin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində lazımi addımların atılmasının əhəmiyyətindən danışıb.

Məsələ ətrafında aparılan müzakirələrdə komitə sədri Fazil Mustafa, deputatlar Vahid Əhmədov, Əli Məsimli, Vüqar Bayramov fikirlərini bildiriblər.

İclasda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü ildə fəaliyyəti haqqında məruzə nəzərə alınıb.

Sonra iclasda "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova bildirib ki, növbəti məsələ "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsidir. O, qanun layihəsinin uyğunlaşdırma xarakteri daşıdığını və müvafiq konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini söyləyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bu qanun layihəsi barədə məlumat verib. O, bildirib ki, layihə "İstehsalat və məişət tullantıları haqqında" Qanunda dəyişiklik edilməsi ilə bağlı 2023-cü il 24 iyun tarixli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Sənəddə 12 qanuna uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi təklif olunur. Dəyişikliklərdə "istehsalat və məişət tullantıları" sözlərinin "tullantılar" sözü ilə əvəz edilməsi nəzərdə tutulur. Qeyd edilib ki, 2023-cü il 24 iyun tarixli dəyişikliklə qanunun tənzimləmə sahəsi genişləndirilərək nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı məsələlərin də istehsalat və məişət tullantıları ilə bağlı qanun çərçivəsində tənzimlənməsi həyata keçirilmiş və bu səbəbdən "İstehsalat və məişət tullantıları haqqında" qanun "Tullantılar haqqında" qanun adlandırılmışdır.

Müzakirələrdən sonra qanun layihəsi qəbul edilib.

Parlamentin spikeri Sahibə Qafarova gündəliyin son üç məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu deyib.

Parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, təklif edilən dəyişikliklər cinayət təqibi gedişində mülki iddianın və xüsusi müsadirənin təmin edilməsi üçün görülən tədbirlərin səmərəliliyini artırmaq, habelə üzərinə həbs qoyulmuş əmlakın dəyərini itirməsinin qarşısını almaq məqsədilə üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsini nəzərdə tutur. Layihəyə əsasən üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcəkdir.

Bundan başqa, Cinayət-Prosessual Məcəlləsinin 443-cü maddəsinə müvafiq dəyişikliklər edilərək, təxirəsalınmaz hallarda, məhkəmənin qərarı olmadan müstəntiqin əsaslandırılmış qərarı əsasında aparılmış istintaq hərəkətlərinin qanuniliyinin yoxlanılmasının xüsusiyyətlərini və nəticələrini müəyyən edən yeni prosessual normaların əlavə edilməsi təklif olunur.

Deputat Razi Nurullayev sənədlə bağlı fikirlərini açıqladıqdan sonra, qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, növbəti məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsidir. O, qeyd edib ki, layihə "Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2023-cü il 24 fevral tarixli Qanunun icrası məqsədilə hazırlanıb. Sədr qeyd edib ki, həmin qanunun icrası ilə əlaqədar ölkə Prezidentinin eyni məktubu ilə Milli Məclisə daha bir qanun layihəsi də təqdim olunub. Bu layihə uyğunlaşdırma xarakteri daşıdığı üçün bir oxunuşda qəbul edilməlidir. Bu səbəbdən indi birinci oxunuşda müzakirəyə təqdim edilən bu qanun layihəsinin üçüncü oxunuşu ilə eyni vaxtda həmin qanun layihəsi bir oxunuşda müzakirəyə çıxarılacaq.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində dəyişikliklə bağlı məlumat verib. O, bildirib ki, ötən il "Fövqəladə vəziyyət haqqında" Qanuna müvafiq dəyişikliklər qəbul edilərək fövqəladə vəziyyətin tətbiq edilməsinə əsas hesab edilməyən, sosial xarakterli fövqəladə mühit rejimini nəzərdə tutan yeni hüquqi normalar müəyyən edilib. İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqi zamanı davranış qaydalarına riayət edilməməsinə görə inzibati məsuliyyəti nəzərdə tutur. Bu inzibati xətalara dair işlərə rayon (şəhər) məhkəmələri tərəfindən baxılması təklif edilir. Qeyd edilib ki, eyni zamanda layihədə fövqəladə vəziyyət rejiminin tələblərinin pozulmasına və dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələblərinin pozulmasına görə də inzibati tənbehlərin sərtləşdirilməsi təklif olunur.

Deputatlar Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Erkin Qədirli sənədlə bağlı fikirlərini və bəzi qeydlərini bildiriblər. Deputat Kamal Cəfərov səsləndirilən məsələlərə aydınlıq gətirib.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda son olaraq "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Bildirilib ki, sənəd məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların davam etdirilməsini nəzərdə tutur. Layihə məhkəmə sisteminin müstəqilliyinin daha səmərəli şəkildə təmin edilməsi məqsədilə hazırlanıb.

Diqqətə çatdırılıb ki, layihədə müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) məhkəmələrin işinin təşkili sahəsində həyata keçirdiyi bir çox səlahiyyətlərinin Məhkəmə-Hüquq Şurasına həvalə edilməsi öz əksini tapıb. Belə ki, məhkəmə statistikasının aparılması, məhkəmələrdə kargüzarlığın təşkil edilməsi, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi, məhkəmələrdə icra və əmək intizamına riayət edilməsi üçün tədbirlər görmək, birinci və apellyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlamaq, həmçinin birinci instansiya məhkəmələrində sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə həvalə etmək, birinci instansiya məhkəmələrinin hakimlərini onların razılığı ilə digər məhkəməyə ezam etmək, onlara məzuniyyət vermək, həmin məhkəmələrin aparatlarının strukturunu və ştat cədvəlini təsdiq etməklə bağlı hüquqlar Məhkəmə-Hüquq Şurasına aid edilir.

Digər dəyişikliklərə əsasən müvafiq icra hakimiyyəti orqanının hakimlər barəsində intizam icraatının başlanılması barədə müraciət etməsi imkanı və hakimlərin həmin orqana ezam edilməsi qanundan çıxarılır. Bundan başqa, layihədə Məhkəmə-Hüquq Şurasının hər hansı müraciət olmadan, qanunla müəyyən edilmiş hallarda bütün instansiya məhkəmələrinin hakimləri barəsində intizam icraatı başlamaq vəzifəsi qeyd olunur. Dəyişikliklərin 2024-cü il iyunun 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Məsələ ətrafında aparılan müzakirələrdə komitə sədri Zahid Oruc, deputatlar Fəzail Ağamalı, Etibar Əliyev, Tahir Kərimli çıxış edərək qeyd və təkliflərini səsləndiriblər. Komitə sədri Əli Hüseynli deputatların fikirlərinə münasibət bildirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## F.F.Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və 130-cu maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Fikrət Fərrux oğlu Məmmədov Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 fevral 2024-cü il*

# BƏƏ Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək niyyətindədir

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Altayer ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Asiya Parlament Assambleyasının üzv dövlətlər arasında dialoq və əməkdaşlığın daha da genişləndirilməsi baxımından əlverişli platforma olduğunu qeyd edərək, paytaxtımızda keçirilən plenar sessiya çərçivəsində məhsuldar müzakirələr aparıldığını diqqətə çatdırıb.

Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Milli Məclisin Sədri deyib ki, dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər və görüşlər əlaqələrimizin dinamik inkişafında mühüm rol oynayır. Qeyd olunub ki, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə sıx əməkdaşlıq mövcuddur. Bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb.

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq var. Azərbaycan və BƏƏ BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərirlər.

Söhbətdə vurğulanıb ki, ikitərəfli münasibətlərdə parlamentlərimiz də mühüm rol oynayır. Bu mənada, Azərbaycan və BƏƏ-nin qanunverici orqanları arasında mövcud olan əməkdaşlıq müsbət qiymətləndirilib. Qeyd olunub ki, parlamentlərimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, APA, İƏT PA kimi təşkilatlarda fəal əməkdaşlığın bir sıra məsələlərin həllinə töhfəsi qeyd edilib. Görüşdə, həmçinin bildirilib ki, hər iki ölkənin qanunverici orqanında fəaliyyət göstərən dostluq qrupları münasibətlərin inkişafında körpü rolunu oynayır. Tərəflər, həmçinin əlaqələrimizin daha da dərinləşməsi, parlament komitələrinin əməkdaşlığı haqqında da fikir mübadiləsi aparıblar.

Azərbaycanda 7 fevral tarixində keçirilmiş növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyevin qalib gəlməsi münasibətilə təbriklərini çatdıran Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası sədrinin birinci müavini ölkəsinin Azərbaycanla bir çox sahələrdə əməkdaşlığı daha da genişləndirmək niyyətində olduğunu söyləyib.

Bu il COP29-un ölkəmizdə keçirilməsi münasibətilə də təbriklərini çatdıran qonaq deyib ki, ölkəmizdə belə bir tədbirin reallaşması beynəlxalq ictimaiyyətin Azərbaycana etimadının təzahürüdür. O, ölkəsinin ötən il bu mühüm tədbirə evsahibliyi etdiyini xatırladaraq, tədbirin təşkili ilə bağlı geniş təcrübəyə malik olduqlarını, dost və qardaş Azərbaycana hər cür dəstək göstərməyə hazır olduqlarını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# APA üzv ölkələr arasında əməkdaşlığın inkişafı baxımından əlverişli çoxtərəfli platformadır

**Fevralın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Maldiv Respublikası Xalq Məclisinin Sədri Mohamed Aslam və Şri-Lanka Demokratik Sosialist Respublikası Parlamentinin Sədri Mahinda Yapa Abeyvardana ilə görüşlər keçirib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova APA-nın üzv ölkələr arasında əməkdaşlıq, dialoq və həmrəyliyin inkişafı baxımından əlverişli çoxtərəfli platforma olduğunu bildirib. O, 40-dək ölkənin parlament nümayəndə heyətinin, habelə bir sıra beynəlxalq parlament təşkilatları təmsilçilərinin iştirak etdikləri 14-cü plenar sessiya çərçivəsində müasir dünyanı narahat edən bir sıra problemlərin müzakirə olunduğunu diqqətə çatdırıb.

Görüşlərdə beynəlxalq münasibətlərdə parlament diplomatiyasının rolu, qanunverici orqanların qlobal proseslərə təsiri barədə də fikirlər səsləndirilib. Tərəflər beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq imkanları barədə də danışıblar. Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin bu mənada əhəmiyyətini diqqətə çatdırıb.

Qonaqlar APA-nın 14-cü plenar sessiyasına uğurla evsahibliyi etdiyi üçün təbriklərini çatdıraraq, ölkəmizə səfərləri və paytaxt Bakı haqqında xoş təəssüratlarını bölüşüblər.

Görüşlərdə, həmçinin ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Əlaqələrin inkişafından məmnunluq ifadə olunub

**Fevralın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qətər Dövlətinin Şura Məclisinin Sədr müavini Hamda bint Hassan Al-Sulaiti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanla Qətər arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub. Milli Məclisin Sədri qeyd edib ki, iki ölkə arasında dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər və görüşlər əlaqələrin inkişafında mühüm rola malikdir. Qeyd olunub ki, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə yaxşı əməkdaşlıq mövcuddur. Bu əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanlar var.

Həmçinin Azərbaycan və Qətər Dövlətinin regional və beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq etdiyi vurğulanıb. Qeyd olunub ki, tərəflər BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birinin mövqeyini qarşılıqlı şəkildə dəstəkləyirlər.

Görüşdə parlamentlərimiz arasında da müsbət əlaqələrin olduğu diqqətə çatdırılıb, münasibətlərin daha da dərinləşdirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. Qeyd olunub ki, hər iki ölkənin qanunverici orqanlarında fəaliyyət göstərən dostluq qrupları bu istiqamətdə mühüm töhfələr verə bilərlər. O cümlədən, qarşılıqlı səfərlər, parlament komitələri arasında əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Həmçinin qeyd olunub ki, Qətər parlamenti Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində və Şəbəkənin konfranslarında iştirak edir.

Qətər Dövlətinin Şura Məclisinin Sədr müavini göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, ölkəsinin Azərbaycanla əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu söyləyib.

Görüşdə Azərbaycanın Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasına uğurlu evsahibliyi qeyd olunaraq bildirilib ki, bu mühüm tədbir regional və beynəlxalq məsələlərin müzakirəsi, təşkilata üzv ölkələr arasında ikitərəfli əlaqələrin daha da inkişafı baxımından əlverişli imkandır. Qətər Dövlətinin Şura Məclisinin Sədr müavini təşkilata sədrliyin Azərbaycana keçməsi münasibətilə təbriklərini çatdıraraq, inamını ifadə edib ki, ölkəmizin sədrliyi dövründə APA üçün yeni strategiya və mexanizmlər yaradılacaq ki, bunlar da təşkilatın fəaliyyətinin daha da genişlənməsinə töhfə verəcək.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası başa çatıb

**Fevralın 23-də Azərbaycanın paytaxtı Bakı şəhərinin evsahibliyi etdiyi növbəti mötəbər beynəlxalq tədbir - Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyası öz işini davam etdirib.**



Xəbər verdiyimiz kimi, "Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunmuş tədbirdə 40-dək ölkənin parlament nümayəndə heyəti, o cümlədən 10-a yaxın ölkənin spikeri, habelə bir sıra beynəlxalq parlament təşkilatlarının rəhbərləri və təmsilçiləri iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, plenar sessiyanın ikinci günündə APA-nın daimi komitələrinin hesabat məruzələri dinlənilib, təşkilati məsələlərə baxılıb. Dünən keçirilən sessiya çərçivəsində qurumun daimi komitələri öz işini davam etdirib. Belə ki, Sosial və mədəni məsələlər, Siyasi məsələlər üzrə daimi komitələrin iclaslarında Asiyada mədəni müxtəlifliyin təşviqi, mədəni irsin qorunması, Asiyada korrupsiyaya, mədəni sərvətlərin qaçaqmalçılığına, narkotik vasitələrin dövriyyəsinə qarşı mübarizə, Asiyada insan inkişafının, uşaq və gənclərin inkişafının təşviqi kimi məsələlər nəzərdən keçirilib və müvafiq qərarlar qəbul olunub.

APA-nın 14-cü sessiyasının sonunda Bakı Bəyannaməsi və Assambleyanın yekun hesabatı qəbul edilib.

Bununla da APA-nın 14-cü sessiyası öz işini başa çatdırıb.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin mart ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 4 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 5, 7, 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 6, 18 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi** | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 29 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Bakıda Küveytin Milli Günü qeyd edilib

**Fevralın 23-də Küveyt Dövlətinin Azərbaycandakı səfirliyi ölkəsinin 63-cü Milli Günü və 33-cü Qurtuluş Gününün ildönümü münasibətilə tədbir keçirib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Küveytin Dövlət himnləri səsləndirilib.

Sonra çıxış edən Küveyt Dövlətinin ölkəmizdəki səfiri Abdullah Mohamed Abdullah Almauidi deyib: "Küveyt Dövləti və Azərbaycan Respublikası arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə mövcud olan yüksəksəviyyəli əlaqələrdən məmnunluğumu ifadə etməkdən şərəf duyuram. Biz, həmçinin bu il iki dost ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik".

Siyasi əlaqələrdən bəhs edən səfir bildirib ki, Küveyt və Azərbaycan arasında beynəlxalq arenada bir çox məsələlərdə, o cümlədən müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində namizədliklərin qarşılıqlı dəstəklənməsi barədə sıx əməkdaşlıq və əlaqələndirmə mövcuddur.

"Küveyt və Azərbaycan arasında parlamentlərarası əlaqələrdən danışarkən vurğulamaq istərdim ki, hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir və müxtəlif parlament təsisatlarında onlar arasında davamlı əlaqə mövcuddur. Bu günə qədər tərəflər arasında müxtəlif qarşılıqlı səfərlər həyata keçirilib. Həmçinin bu il Azərbaycan Milli Məclisi Sədrinin də Küveytə səfəri planlaşdırılır. Bütün bunlar iki ölkə arasında dərin əlaqələrin mövcudluğunu bir daha sübut edir", - deyə o vurğulayıb.

Səfir qeyd edib ki, Küveytdən Azərbaycana turist axını böyük sürətlə artıb. Belə ki, keçən il Azərbaycana gələn küveytli turistlərin sayı 2022-ci ilə nisbətən artaraq 30 min nəfərə yaxın olub.

Bu artımda ölkələrimiz arasında müntəzəm birbaşa aviareyslərin həyata keçirilməsinin də böyük rolu var.

Çıxış edən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Küveytin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəklədiyini vurğulayıb, münasibətlərimizin qarşılıqlı inama və etibara əsaslandığını qeyd edib.

O bildirib ki, Azərbaycan-Küveyt dostluğu tarixi və mədəni köklərə söykənir. İki ölkə arasında iqtisadi, siyasi, mədəni sahələrdə əlaqələr yüksək səviyyədədir.

"Azərbaycan və Küveyt arasında həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq əlaqələri var. Beynəlxalq təşkilatlar çərçivəsində də münasibətlərimizi uğurla davam etdiririk",- deyə Y.Rəfiyev əlavə edib.

Tədbir ziyafətlə davam edib.



# Dünyaya örnək olan Azərbaycan-Türkiyə münasibətləri

*Əvvəli 1-ci səh.*

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi meqalayihələr qardaş ölkələrlə yanaşı, bütün bölgənin inkişafına mühüm töhfələr verir.

Azərbaycan və Türkiyənin beynəlxalq və regional təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində koordinasiyalı fəaliyyəti, bir-birinə qarşılıqlı dəstəyi parlaq bir örnəkdir. Azərbaycan-Türkiyə əlaqələrinin belə yüksək inkişafı regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına güclü təminat yaradır. Bu münasibətlər, həmçinin türkdilli ölkələr və xalqlar arasında birliyin və əməkdaşlığın gücləndirilməsini şərtləndirən ən mühüm amillərdən birinə çevrilib.

Əlbəttə, hazırda bütün dünyaya nümunə olan Azərbaycan və Türkiyə münasibətlərinin bu səviyyəyə gəlib çatmasında ortaq tarixi köklərin, iqtisadi əlaqələrin, dövlət maraqlarının, gələcəyə birgə baxışın təsiri də əhəmiyyətlidir. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı şəxsi dostluq və qardaşlıq münasibətləri bu əlaqələrin daha da möhkəmlənməsi və inkişafını şərtləndirən əsas amillərdəndir.

Çünki müasir dünyamızın reallıqları göstərir ki, mədəniyyət ümumiliyi, sosial-iqtisadi əlaqələr, tarixi köklər iki ölkənin bir-biri ilə yaxın münasibətləri üçün o qədər də həlledici faktor deyil. Azərbaycan və Türkiyə liderlərinin bir-birinə olan güvən və etibarı, regiona, ümumən dünyaya sülh və rifah arzusu ölkələrimiz arasındakı münasibətləri hər kəs üçün örnək səviyyəyə yetirib. Fakt ondan ibarətdir ki, bu gün bütün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan başqa iki dövlət yoxdur və belə birgəliyi təsəvvür etmək də mümkün deyil. Bu doğmalıq dövlət siyasətinin ən üst məqamından tutmuş hər bir cəmiyyət üzvünün münasibətinə qədər geniş bir sferanı əhatə edir. Bu gün Türkiyə-Azərbaycan birliyi təkcə bölgə üçün deyil, Avrasiya üçün də önəmli amilə çevrilib.

## Tarixin sınağından çıxmış strateji müttəfiqlik

Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin təmin olunması ilə başa çatan 44 günlük Vətən müharibəsi ölkələrimiz arasındakı münasibətlərdə yeni bir tarixi salnaməyə çevrildi. Qardaş Türkiyə haqq savaşımızın hər anında Azərbaycanın yanında idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsən özünün hərbi əməliyyatların ilk saatlarında Azərbaycana açıq, dəqiq və birmənalı dəstəyini ifadə etməsi xalqımıza böyük ruh verdi. Əsgər və zabitlərimizin döyüş qüdrətini daha da yüksəltdi. Türkiyə kimi qlobal proseslərə əhəmiyyətli təsir imkanlarına malik güclü bir dövlətin yanımızda olması, hərtərəfli dəstəyini bəyan etməsi işğalçı Ermənistanın havadarlarına da yerlərini göstərdi. Azərbaycanla təhdid dili ilə danışmaq istəyənlər, müharibəyə müdaxilə etmək fikrinə düşənlər qarşılarında Türkiyəni də görərək dayanmalı oldular. Belə bir birgəlik "dəmir yumruğ"a çevrildi. Bu tarixi Qələbəmizin rəmzi kimi tarixə yazılan Zəfər paradında da Azərbaycan və Türkiyə prezidentləri yanaşı durdular. Öz çıxışlarında xalqlarımızın və ölkələrimizin qardaşlığının sarsılmazlığı barədə çox əhəmiyyətli və aydın bəyanatlar səsləndirdilər. Bu, bütün dünyaya dəqiq mesajlar idi. Azərbaycan və Türkiyə prezidentlərinin Zəfər paradındakı tarixi çıxışları qələbəmizə daha da möhtəşəmlik gətirdi.

2021-ci ilin 15 iyununda isə bu möhtəşəmlik iki ölkənin daha bir tarixi addımı ilə davam etdi. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin tarixdə Qələbəmizin simvollarından olan Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nə imza atdılar.

Tarixə "Şuşa Bəyannaməsi" kimi həkk olunmuş bu mühüm sənəd iki qardaş ölkə arasındakı münasibətlərin tamamilə yeni bir mərhələsidir. "Şuşa Bəyannaməsi" Azəbraycan və Türkiyənin strateji müttəfiqlik münasibətlərini rəsmi səviyyədə təsbit etdi. Bu sənəddə öz əksini tapan strateji müttəfiqlik məsələləri iki qardaş dövlət arasında bütün sahələrdə sıx əməkdaşlığı, habelə təhlükəsizlik və müdafiə sahələrində qarşılıqlı yardım prinsiplərini əhatə edir.

Azərbaycan Prezidenti İlham Əliyev qardaş ölkədə verdiyi bəyanatda xüsusi vurğulayıb: "Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək biz bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Biz öz gücümüzə güc qatırıq və təbii ki, Türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək". O cümlədən, Türkiyə ilə Azərbaycanı və Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsində mühüm rol oynayacaqdır. Azərbaycan və Türkiyə arasındakı əlaqələrin daha da möhkəmlənməsində, regionumuzda sabitliyin və təhlükəsizliyin qorunub saxlanmasında "Şuşa Bəyannaməsi"nin müstəsna rolu var. Bu sənəd gələcəkdə də bölgəmizdə daimi sülh və inkişafa xidmət edəcək.

Azərbaycan da hər zaman qardaş Türkiyənin yanındadır. Qardaş ölkənin sevinci sevincimiz, kədəri kədərimizdir. Ötən ilin fevralında ölkəmizin Türkiyədə dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında göstərdiyi qardaşlıq dəstəyi, cəmiyyətimizin yüksək həmrəyliyi bunun bir nümunəsi idi.

## Doğma bir ailənin üzvü - Türk dünyası

"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki çıxışı zamanı bu məqamı xüsusi vurğuladı.

Bu gün Azərbaycan və Türkiyə ümumən türk dünyasının mərkəzinə çevrilir. Başqa türkdilli ölkələri də bu münasibətlər ətrafında bir araya gətirir. Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərinə malikdir və aparılan bu siyasət bu qurumu gücləndirməkdədir. Yaxın gələcək üçün bu təşkilat potensial qlobal güc kimi çox böyük perspektivlər ortaya qoyur. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın da doğma bir ailənin üzvü kimi daxil olduğu Türk dünyasının gələcəyini belə görür: "Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Azərbaycan və Türkiyənin qarşılıqlı səyləri buna xidmət edərək türk dövlətlərinin bu təşkilat çərçivəsində sıx birliyini daha da gücləndirir, Türk Dövlətləri Təşkilatının qlobal önəmini, miqyasını və rolunu yüksəldir. Asiya ilə Avropanı birləşdirən trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin davamı olan Orta dəhliz ideyasının reallaşmasına doğru atılan addımlar türk dünyasının beynəlxalq məkana inteqrasiyası ilə yanaşı, olduqca güclü iqtisadi potensialı özündə ehtiva edir.

Bu gün iki ölkə arasında hərbi sahədə əməkdaşlıq əlaqələri də inkişaf edir, Azərbaycanla Türkiyənin birgə ordu quruculuğu istiqamətində atdığı addımlar möhtəşəm nəticələr verir. Azərbaycan Prezidentinin bir neçə gün əvvəl Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın iştirakı ilə izləməsi bunun bir təzahürü oldu.

Azərbaycan və Türkiyə təhsil, texnologiyalar sahəsində də əməkdaşlıq əlaqələrini gücləndirir. Cənab İlham Əliyevin qardaş ölkəyə rəsmi səfəri zamanı "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu"nun imzalanması, bu sənəd çərçivəsində Türkiyə-Azərbaycan Universitetinin yaradılmasının nəzərdə tutulması böyük nailiyyətlərə yol açacaqdır.

Məlum olduğu kimi, bu il ölkəmiz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29 tədbirinə ev-sahibliyi edəcək. Azərbaycan və Türkiyə COP29 çərçivəsində də fəal əməkdaşlıq edir və birgəliyimizin gücü ilə dünyamız üçün sülh, təhlükəsiz inkişaf dəyərləri yaradır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Elçin ƏMİRBƏYOV:* "Sülhün əldə olunması Ermənistanın siyasi iradəsindən asılıdır"

**"İndependent Arabia" nəşrində Azərbaycan və Ermənistan arasında sülh danışıqları və Fransanın bu prosesə təsirinə dair məqalə yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, məqalədə ilk olaraq Ermənistanın baş naziri Nikol Paşinyanın bu günlərdə Fransaya rəsmi səfəri, burada dövlət başçısı Emmanuel Makron ilə görüşü və verilən bəyanatlara diqqət ayrılıb. Qeyd edilir ki, Fransa və Ermənistanı tarixi bağlar birləşdirir, çünki Fransada 600 mindən çox erməni yaşayır. Buna görə də Fransa Ermənistanın arsenalının gücləndirilməsində iştirak edir və bu gedişat Azərbaycan tərəfindən birmənalı qarşılanmır. Rəsmi Bakı Fransanı Ermənistanın hücumameyilli siyasətini dəstəkləməkdə və onu qonşuları ilə müharibəyə təhrik etməkdə ittiham edir.

Nəşr mövzu ilə bağlı Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovdan müsahibə alıb. Müsahibədə vaxtilə Fransada səfir vəzifəsində çalışmış Azərbaycan rəsmisinin sülh danışıqlarına dair fikirləri yer alıb. E.Əmirbəyov qeyd edib ki, Azərbaycan 30 il Ermənistanın işğalı altında olmuş Qarabağ regionunu azad etdikdən sonra yekun sülh müqaviləsinin bağlanması üçün fürsətlər yaranıb. O, bu kontekstdə hər iki ölkənin rəhbərlərinin ən son olaraq Münxen Təhlükəsizlik Konfransı çərçivəsində görüşlərinə işarə edib.

İkitərəfli münasibətlərin inkişafı və sülh müqaviləsinin bağlanması üçün yaranan imkanlardan, eləcə də Azərbaycan və Fransa arasında soyuq olan əlaqələrdən bəhs edən E.Əmirbəyov, hazırda Ermənistan tərəfindən xoş niyyətin nümayiş etdirilməli olduğunu vacib hesab edib. Çünki sülhün əldə olunması Ermənistanın siyasi iradəsindən asılıdır.

Azərbaycan rəsmisi müsahibədə, həmçinin bildirib ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından rəsmi olaraq imtina etməyib. Çünki Ermənistanda 1990-2000-ci illər arasında qəbul olunmuş bir çox sənədlərdə Azərbaycana qarşı coğrafi ərazi iddiaları öz əksini tapır. Həmin qanunvericilik aktlarının hələ də qüvvədə olması sülh müqaviləsinin bağlanması istiqamətində əsas maneələrdən sayıla bilər. Eyni zamanda bu sənədlərin hələ də mövcudluğu Ermənistanın sülh bağlanmasına maraq göstərməməsi kimi dəyərləndirilir. Həmçinin bu sənədlər beynəlxalq hüququn ciddi şəkildə pozulmasıdır, çünki beynəlxalq ictimaiyyət 1992-ci ildə Azərbaycan BMT-yə üzv qəbul olunarkən Qarabağı Azərbaycanın ərazisi kimi tanıyıb. Bundan başqa, Ermənistan Azərbaycan kəndlərini hələ də işğal altında saxlayır və Azərbaycana qarşı Haaqa Beynəlxalq Ədalət Məhkəməsinə şikayətlə müraciət edib.

E.Əmirbəyov müsahibədə Ermənistan tərəfinin Azərbaycanın Ermənistan ərazilərinə iddialı olması kimi cəfəng fikirlərinə aydınlıq gətirərək bildirib ki, Azərbaycan sülh müqaviləsinin müsbət nəticəsi kimi bütün nəqliyyat yollarının açılmasının tərəfdarıdır. Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı saxlayan, qışda Gürcüstan ilə yolların keçilməz olduğu və yalnız İranla rahat gediş-gəlişə malik Ermənistan bu məsələdə dilemma qarşısındadır.

Azərbaycan rəsmisi sonda bildirib ki, sülh müqaviləsinin bağlanması və iki ölkə arasında diplomatik münasibətlərin qurulması özü ilə bir çox üstünlüklər gətirə bilər və region tranzit yüklərin daşınması üçün əhəmiyyət qazanar. Belə ki, Azərbaycanın əsas hissəsinin Naxçıvanla kommunikasiya vasitəsilə birləşməsi Orta dəhlizin inkişafına və Çindən Avropa ölkələrinə yüklərin daşınmasına təkan verə bilər. E.Əmirbəyov bu məsələnin iqtisadi və kommersiya aspektlərinin Ermənistan üçün də maraqlı olacağına əminliyini bildirib.

Müsahibədə, həmçinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşada görülən işlərdən, keçmiş məcburi köçkünlərin tədricən öz torpaqlarına qayıdışından bəhs olunub, o cümlədən 2026-cı ilədək 140 min insanın öz dədə-baba yurduna geri dönüşünün təmin ediləcəyi vurğulanıb.

# Ermənistanın KTMT-dən imtinası siyasi və hərbi kataklizmlərlə nəticələnə bilər

**Ermənistanın baş naziri Nikol Paşinyan "France24" telekanalına müsahibəsində kollektiv təhlükəsizlik müqaviləsinin 2022-2023-cü illərdə onun ölkəsinə münasibətdə yerinə yetirilmədiyini bildirib və İrəvanın KTMT-də üzvlüyünü "dondurduğunu" bəyan edib. KTMT-dən isə bildirilib ki, İrəvandan təşkilata üzvlüyün dayandırılması ilə bağlı katibliyə müraciət daxil olmayıb.**



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Elman Nəsirov bildirib ki, bu gün Ermənistan-Rusiya münasibətləri böhran həddinə çatıb: "Bu ölkələr hüquqi baxımdan strateji və hərbi müttəfiq hesab edilsələr də, reallıq tamamilə başqadır. Ermənistan Rusiyanın aparıcı qüvvə olduğu Kollektiv Təhlükəsiz Müqaviləsi Təşkilatında formal olaraq mövcuddur, orada praktiki olaraq heç bir addım atmır. İrəvan KTMT-də nəinki fəaliyyət göstərmir, hətta bu qurumun tədbirlərindən nümayişkaranə şəkildə imtina edir. Bu isə o deməkdir ki, Ermənistan yalnız hüquqi baxımdan KTMT-nin üzvüdür. De-fakto isə bu təşkilata onun üzvlüyündən söhbət belə gedə bilməz".

Deputatın sözlərinə görə, Ermənistanın planlaşdırdığı növbəti siyasi addımlar Rusiya-Ermənistan münasibətlərinin ən pik həddə korlanmasına səbəb ola bilər. Belə ki, Ermənistan qəbul etmək istədiyi yeni konstitusiyaya ərazilərində hansısa üçüncü ölkəyə məxsus hərbi bazanın olmaması ilə bağlı bənd salmaq niyyətindədir. Yeni konstitusiyada bu bənd yer alacağı təqdirdə Rusiyanın Gümrüdəki 102-ci hərbi bazası bu ölkədən çıxarılmalıdır. Bu məsələ konstitusion yolla həllini tapacağı halda, deməli Ermənistanın KTMT-dən çıxması artıq reallığa çevrilə bilər. Lakin Kremlin bunları sadəcə kənardan izləyəcəyi inandırıcı deyil, istisna edilmir ki, bunun qarşılığında İrəvana ciddi təzyiqlər göstəriləcək. Bu, ciddi iqtisadi resurslara malik olan Rusiya üçün çox asandır.

Elman Nəsirov Ermənistanın iqtisadi cəhətdən Rusiyadan asılılığına da diqqət çəkib. Bildirib ki, bunda Ermənistanın elektrik enerjisi tələbatının 40 faizinin Metsamor atom-elektrik stansiyası hesabına həyata keçirilməsi, eyni zamanda bir çox sahələr üzrə monopolist mövqeyin Rusiyaya məxsus olması nəzərə alınmalıdır. Ona görə də İrəvan konstitusiyasına belə düzəliş edərsə, Ermənistanla Rusiya arasında sözün həqiqi mənasında, çox ciddi ixtilaflar yarana bilər. Bu isə birbaşa siyasi və hərbi kataklizmlərin baş verməsinə yol açar.

Deputat yekunda vurğulayıb ki, KTMT-nin katibliyinə İrəvandan təşkilata üzvlüyün dayandırılması ilə bağlı müraciətin daxil olmaması ilə bağlı açıqlamadan isə belə bəlli olur ki, Paşinyanın tezisi hələlik təşkilatın bir sıra tədbirlərində iştirak etməməklə əlaqədardır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Aşkarlanan kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlərin izlərini üzə çıxarır

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində davamlı şəkildə aşkar olunan kütləvi məzarlıqlar Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş müharibə və insanlıq əleyhinə cinayətlərin izlərini üzə çıxarır.**

Xocalı soyqırımının 32-ci ildönümü ərəfəsində Xocalı şəhəri ərazisində növbəti kütləvi məzarlığın tapılması faktı Ermənistanın inkar etməyə çalışdığı qeyri-insani əməllərini bir daha açıq şəkildə sübuta yetirmiş oldu. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın Xocalıda aşkarlanan kütləvi məzarlıqlarla bağlı bəyanatında yer alıb.

Ombudsman, həmçinin qeyd edib: "Belə ki, bu il fevralın 21-də Xocalı şəhərində bərpa-quruculuq məqsədilə qazıntı işləri aparılarkən növbəti kütləvi dəfn yeri aşkarlanmışdır. Ərazidə hələ də davam edən qazıntılar zamanı ilkin olaraq müəyyən edilmiş insan qalıqlarının əsasən qadın və uşaqlara aid olması, onların əllərinin kəndirlə bağlanması və işgəncələrlə qətlə yetirilməsi faktları Ermənistanın azərbaycanlılara qarşı yürütdüyü nifrət və soyqırımı siyasətini, müharibə və insanlıq əleyhinə törətmiş olduğu cinayətləri sübut edir. Dəhşətli faktlardan biri də ərazidə tapılmış qalıqlardan birinin 4-5 yaşlarında uşağa məxsus olması ehtimalı ilə bağlıdır.

Bir daha xatırlatmaq istərdim ki, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-ə yaxın azərbaycanlının, o cümlədən Xocalı soyqırımı nəticəsində əsir və girov götürülmüş 150 nəfərin taleyi bugünədək məlum deyildir. Təəssüf ki, Ermənistan tərəfi bu illər ərzində itkin düşmüş şəxslərlə bağlı məlumatları, o cümlədən kütləvi məzarlıqların koordinatlarını ölkəmizə təqdim etməkdən yayınmış, yalnız azad edilmiş ərazilərdəki kütləvi məzarlıqlarda tapılmış insan qalıqlarının eyniləşdirilməsi istiqamətində Azərbaycanın müvafiq dövlət qurumlarının həyata keçirdiyi tədbirlər nəticəsində bir neçə itkin düşmüş şəxsin taleyinə aydınlıq gətirilmişdir.

Qeyd olunanları nəzərə alaraq, insan hüquqları sahəsində fəaliyyət göstərən bütün beynəlxalq təşkilatları bu cür faktlara biganə yanaşmamağa, Ermənistan tərəfindən azərbaycanlılara qarşı etnik nifrət zəminində cinayət əməllərinin törədilməsində təqsirli olan şəxslərin ədalət mühakiməsinə cəlb edilməsi istiqamətində zəruri addımlar atmağa çağırıram".

# İcma: "Paşinyandan öz ölkəsini Fransanın oyunlarına alət etməməyi tələb edirik"

**Fransada səfərdə olan Ermənistanın baş naziri N.Paşinyan növbəti dəfə anti-Azərbaycan bəyanatlar vermişdir.**

Paşinyan Qərbi Azərbaycan ifadəsinin Ermənistanın ərazi bütövlüyünə qarşı olduğunu iddia edərək, Azərbaycanı Ermənistana hücum etməyə hazırlaşmaqda ittiham etməyə çalışıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

Açıqlamada, həmçinin qeyd olunub: "İlk öncə vurğulayaq ki, Qərbi Azərbaycan ifadəsi tarixi və coğrafi həqiqətə əsaslanan bir termindir və İcmamızın ondan istifadə etməsi beynəlxalq insan hüquqları konvensiyaları ilə tanınan özünü identifikasiya hüququna əsaslanır. Dövlətlərin ərazi bütövlüyünə hörmət etdiyini dəfələrlə bəyan edən Qərbi Azərbaycan İcmasının fəaliyyətinə irad tutmağa çalışan Paşinyan Azərbaycanın ərazi bütövlüyünə qəsd edən separatçı ünsürlərin Ermənistan ərazisində fəaliyyətinə şərait yaratmasına, öz ölkəsinin qanunvericiliyində Azərbaycan ərazilərinin ilhaqı barədə müddəaların saxlanması məsələsinə aydınlıq gətirməlidir.

Açıq-aşkar görünür ki, Ermənistanın baş naziri Fransanın fitvasına uyaraq, regionda gərginlik yaratmaq yolunu tutub. Fransanın Ermənistana böyük miqdarda silahlar satması, o cümlədən Fransanın müdafiə naziri və bu ölkənin hərbi-sənaye şirkətlərinin rəhbərlərinin Ermənistana hazırkı səfəri bunları söyləməyə əsas verir ki, Ermənistan məhz Fransanın təhriki ilə hərbi avantüraya getmək niyyətindədir.

Biz N.Paşinyandan öz ölkəsini Fransanın oyunlarına alət etməməyi, kütləvi silahlanma siyasətinə son verməyi, Qərbi azərbaycanlıların qayıdışına şərait yaradaraq Azərbaycan ilə sülhə getməyi tələb edirik".




# AZERBAIJAN COP29

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası**



# İlham Əliyevin "yaşıl dünya" missiyası



## COP29 sammitində dünya Azərbaycanın qlobal böhranla mübarizə modelinə şahidlik edəcək

**Azərbaycanın beynəlxalq toplantılara, forumlara, konfranslara, hətta idman yarışlarına yüksəksəviyyəli evsahibliyi dünya tərəfindən hər zaman təqdir edilib. Avropa Oyunlarının standartlarını müəyyənləşdirən, İslam Həmrəyliyi Oyunlarına, siyasi-iqtisadi beynəlxalq forumlara, konfranslara ən layiqli şəkildə evsahibliyi etməsi ilə nüfuzunu artıran Azərbaycan indi də COP29-a hazırlaşır.**

Əlbəttə ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Ancaq bu sahədəki təcrübə yetərlidir ki, növbəti beynəlxalq konfransı da ən yüksək səviyyədə keçirə bilək.

### Təşkilat Komitəsinin tərkibi bir qədər də genişləndirildi

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bu günədək ölkəmizdə bir çox tədbir keçirilsə də, COP29 bu vaxta qədər keçirilən tədbirlərlə müqayisəyə gəlmir. Çünki COP29 ərəfəsində 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı növbəti dəfə dünyanın diqqətini çəkəcək. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Digər tərəfdən, vaxt da o qədər çox deyil. Ona görə də Prezident İlham Əliyev dərhal bütün hazırlıq işlərinə start verməsi üçün tapşırıq verib. COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Azərbaycan Prezidentinin digər sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən, Təşkilat Komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP29-la bağlı Azərbaycandan böyük gözləntilər var, həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir. Bu da Təşkilat Komitəsinin tərkibinin bir qədər də genişləndirilməsini şərtləndirib.

Sərəncama nəzər yetirdikdə aydın şəkildə görünür ki, Təşkilat Komitəsində gender balansı tam təmin olunub ki, bu da Prezidentin qadınların cəmiyyətdəki roluna olan diqqət, etimad və hörmətinin göstəricisidir.

Ümumiyyətlə isə bu sahədə dünyada vətəndaş cəmiyyəti çox aktivdir, ona görə Təşkilat Komitəsinə vətəndaş cəmiyyətinin nümayəndələri də daxil edilib. Bu işə onlar da öz töhfələrini verəcəklər.

COP29-da müzakirə olunacaq müasir çağırışlar, innovasiya məsələlərinin geniş müzakirə olunacağı nəzərə alınaraq, Təşkilat Komitəsində iqtisadiyyat, innovasiya sahəsində çalışan şəxslər də təmsil olunurlar.

Göründüyü kimi, ümumən əsas ideya Təşkilat Komitəsinin maksimum inklüzivliyinin təmin edilməsidir.

### Qlobal problemin müzakirə edildiyi mühüm platforma

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir.

COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. Qeyd etmək yerinə düşər ki, COP29-a evsahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürmüşdülər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda elan olunub ki, Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atıb.

### Azərbaycanın yeni gündəliyi "yaşıl enerji"dir

Qobal miqyasda cərəyan edən proseslər ətrafında fikir mübadiləsinin aparıldığı, hazırkı mürəkkəb böhranların aradan qaldırılması yollarının müzakirə edildiyi mötəbər platforma hesab edilən COP29 Azərbaycana həm də böyük dividendlər gətirəcək.

Bu səbəbdən də hazırlıq işləri ilə bağlı ciddi göstəriş və tapşırıqlarını verən Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan bu beynəlxalq konfransı da yüksək səviyyədə keçirəcək. Bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcək və dünyada hər kəs bir daha görəcək ki, ölkəmizin gündəliyi "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və dünya bazarlarına nəqli hazırda İlham Əliyevin enerji siyasətinin prioritetidir. Bakının qucaq açacağı COP29-da dünya buna bir daha şahidlik edəcək.

Ümumiyyətlə, Azərbaycan "yaşıl enerji" iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Buna misal olaraq, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya yeni hədəflər qoyur. Bununla yanaşı, İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Bir sözlə, COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biri olduğu üçün Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü dünyaya sübut edəcək. Bu sammit Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə mühüm təkan, ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına isə müsbət impuls verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Muxtar Babayev ABŞ Dövlət Departamentinin iqlim elçisi ilə COP29-la bağlı əməkdaşlıq imkanlarını müzakirə edib

**ABŞ Dövlət Departamentinin iqlim elçisinin müavini Syu Biniaz ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**

AZƏRTAC nazirliyin Mətbuat xidmətinə istinadla xəbər verir ki, görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb, mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

# İqlim dəyişmələri ilə mübarizə güclənəcək

## Bakıda keçiriləcək COP29 sammitində yeni qlobal təşəbbüslər meydana çıxacaq

**"Dünyanın ən böyük beynəlxalq tədbiri hesab edilən COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi ilə bağlı qəbul olunmuş qərar olduqca mühüm əhəmiyyət daşıyır. Bu, bir çox nüfuzlu beynəlxalq tədbirlərə ən yüksək səviyyədə evsahibliyi etmiş ölkəmizə olan beynəlxalq etimadın növbəti göstəricisidir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat qeyd edib ki, 180-dən çox dövlətin nümayəndəsinin iştirak edəcəyi bu tədbirdə ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumların təmsilçilərinin geniş müzakirəsi bu sahələrə sərmayə axınını stimullaşdıracaq, "yaşıl iqtisadiyyat" quruculuğu yolunda təşəbbüsləri bir araya gətirəcək. COP29 sammiti Azərbaycanın etibarlı tərəfdaş ölkə kimi dünyada açıq təşəbbüslərin açıq məkanına çevrilməsini şərtləndirməklə, gələcək yeni enerji proqramlarında bölgənin aparıcı sərmayə nöqtəsinə çevrilməsini də təmin edəcək. Bu Zirvə konfransı dünya ictimaiyyətinin diqqətinin iki həftə ərzində ölkəmizə və ölkəmiz vasitəsilə Cənubi Qafqaza yönəlməsinə imkan yaradacaq. Neçə illərdir ki, Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayan Azərbaycan COP29-un nüfuzlu platforması çərçivəsində beynəlxalq birliyə, tərəfdaşımız olan qardaş və dost ölkələrlə yanaşı, bədxahlarımıza da göstərəcək ki, alternativ enerji ilə bağlı layihələr və "yaşıl enerji"nin dünya bazarına nəqli Azərbaycanın enerji siyasətində prioritet sahələrdən biridir. Bu siyasət nəticə etibarilə Avropadakı tərəfdaşlarımızın maraqlarına xidmət edir.

A.Hüseynov vurğulayıb ki, bu mötəbər tədbirin "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi nəticəsində Azərbaycan özünün ən müsbət tərəflərini dünyaya çatdıra biləcək: "Ölkəmiz, həmçinin bu istiqamətlər üzrə bir neçə on illiyə hesablanmış yeni siyasətin formalaşdırılması üçün çox əlverişli imkanlar qazanacaq. Bu baxımdan düşünürəm ki, konfrans çox əhəmiyyətli tədbirdir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə isə Azərbaycanın bütün dövlət, özəl qurumları birbaşa və ya dolayı yolla adıçəkilən proseslərdə fəal iştirak etməklə dövlətin bununla bağlı mövcud siyasətinə də dəstək verəcək".

Deputat bildirib ki, COP29-a beynəlxalq nəhəng iqtisadi tədqiqat və investisiya mərkəzlərinin, maliyyə institutlarının da böyük marağı var. Onların sırasında Dünya Bankının (DB) da buna xüsusi dəstəyi mövcuddur. Dünya Bankı "yaşıl iqtisadiyyat"a böyük önəm verir, sərmayələr cəlb edir. Xüsusilə ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumlarla sıx əməkdaşlıq edir, iqlim dəyişmələrinə həsr edilmiş konfranslara dəstək verir. Azərbaycanın da hədəfləri bu istiqamətə yönəlib, "yaşıl iqtisadiyyat" quruculuğu istiqamətində davamlı proqramlara start verilib. Ölkəmizdə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Ona görə də DB-nin COP29 ili çərçivəsində ölkəmizlə üst-üstə düşən hədəf prioritetlərinə dəstək verəcəyi istisna deyil, bank artıq bu barədə öz niyyətini bəyan edib.

Deputatın fikrincə, Azərbaycanın öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəyi və COP29-u ən yüksək səviyyədə keçirəcəyi heç kimdə şübhə doğurmur. "Hazırlıq işlərinin layiqincə həyata keçirilməsi üçün komanda formalaşdırılıb, bütün qurumlar səfərbər olunub. Cənab Prezidentin tapşırığına əsasən, Təşkilat Komitəsi yaradılıb və komitənin ilk iclası keçirilib. İclasda COP29-un ən yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi tədbirlərin görüləcəyi bildirilib. Ölkəmizin konfransa hazırlıq prosesində dövlətlər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyətləri, yerli və beynəlxalq media, digər tərəf-müqabilləri ilə konstruktiv əməkdaşlığa və dialoqa hazırlığı üçün hərtərəfli işlər görülməkdədir", - deyə o əlavə edib.

A.Hüseynov qeyd edib ki, Azərbaycanın evsahibliyi edəcəyi COP29 iqlim dəyişmələri ilə bağlı yeni yanaşmaların yaranmasına və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığa imkan verəcək, iqlim dəyişmələri ilə mübarizədə yeni qlobal təşəbbüslər meydana çıxacaq. Bir sözlə, Azərbaycan indiyə qədər ən mötəbər qlobal tədbirləri yüksək səviyyədə və ən layiqli tərzdə təşkil etdiyi kimi, bu Zirvə görüşünə də özünəməxsus peşəkarlıqla evsahibliyi etməklə dünyaya öz təşəbbüskarlıq və təşkilatçılıq ənənəsinin nümunəvi modelini təqdim edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakıda COP29-un keçirilməsi ölkədə innovasiyaların inkişaf strategiyasının nəticəsidir

**Bu gün dünya ictimaiyyətini müharibə və münaqişələrlə yanaşı, iqlim dəyişikliyi də narahat edir və bunun qarşısının alınması istiqamətində elm adamları ilə yanaşı, dövlətlər də əsaslı fəaliyyətə başlayıblar.**

Bu problem bütün dünyanı əhatə etdiyi üçün BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 190-dan çox dövlət qoşulub. Bu dövlətlər müxtəlif konfrans və seminarlar keçirərək "yaşıl enerji"yə keçidin (transformasiya) reallaşmasını və atmosferə karbon qazının atılmasının azaldılmasına çalışırlar. Bu tədbirlər arasında konvensiya tərəfdarlarının konfransı (Conference of the Parties (COP)) xüsusilə əhəmiyyətlidir. Sayına görə 29-cu konfrans (COP29) cari ilin noyabr ayında Bakıda keçiriləcək və bu tədbir ölkəmiz üçün mühüm xarakter daşıyır.

Azərbaycanın belə bir möhtəşəm tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. İqlim dəyişmələrinin qarşısının alınması ilk növbədə istixana effektini törədən qazların atmosferə buraxılmasını ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə öz növbəsində enerji transformasiyanın əsas istiqaməti olan bərpa olunmayan enerji mənbələrindən (kömür, neft, qaz, torf, müxtəlif növ bitumlar və s.), bərpa olunan enerjiyə (günəş, külək, su axarları və s.) keçmək deməkdir. Dünya İqtisadi Forumu bu prosesləri son onillikdə, yəni 2014-2023-cü ildə necə getdiyini təhlil edib.

Təhlilə əsasən, dünya ölkələrinin Enerji Keçidi İndeksi hesablanıb. Bu siyahıya İsveç 75,5 indeksi ilə başçılıq edir. Minimal Enerji Transformasiya İndeksi (40) Yəməndə qeyd edilib. Azərbaycanın indeksi 62-yə bərabərdir və bu göstərici ilə ölkəmiz dünyada 32-ci yerdədir.

Energetika Nazirliyinin məlumatına əsasən, Azərbaycanın bərpaolunan enerji potensialı quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur. Xəzər dənizində isə külək enerjisi 157 qiqavat təşkil edir. Azərbaycan 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır.




Prezident İlham Əliyev hələ 2004-cü il oktyabrın 21-də "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar Qarabağda, Bakıda, Naxçıvanda böyükhəcmli işlər həyata keçirilib. 2023-cü ilin yanvar-sentyabr aylarında ölkədə elektrik enerjisi istehsalı 20 milyard 279,7 milyon kVt-saat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz çoxdur. Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra isə azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Beynəlxalq standartlara əsasən, transformasiyanın vacib şərti enerji səmərəliliyidir. Səmərəlilik hər vahid enerjinin istifadəsi nəticəsində hansı dəyərdə ümumi daxili məhsul (ÜDM) istehsal olunduğuna əsaslanır. Bu zaman enerji vahidi kimi bir kiloqram neftdə olan enerjidən istifadə olunur. Dünya Bankının hesabatlarına əsasən, Azərbaycanda 2003-cü ildə bir vahid enerjinin istifadəsi nəticəsində dəyəri 4 dollar olan ÜDM istehsal olunurdu. Beynəlxalq qurumun ən son dərc etdiyi məlumatlara görə, ölkəmizdə bu rəqəm 11,6 dollar təşkil edir. Bu isə son 20 ildə Azərbaycanda enerji səmərəliliyinin təxminən 3 dəfə artdığını göstərir. Müqayisə üçün qeyd etmək lazımdır ki, bir vahid enerjinin istifadəsi nəticəsində ölkəmizdə 11,6 dəyəri olan ÜDM yaradılırsa, qonşu Rusiyada bu rəqəm 5,3, İranda 5,3, Qazaxıstanda 5,6 dollar təşkil edir. Azərbaycanın enerji səmərəliliyi sahəsində əldə etdiyi göstərici Fransa (11,1 dollar), Yaponiya (11,8 dollar), Macarıstan (11,0 dollar), Litva (11,8 dollar) və digər inkişaf eləmiş ölkələrlə müqayisə edilə bilər.

Enerji keçidi (transformasiyası) indeksinin hesablanmasında istifadə edilən digər göstərici atmosferə karbon qazının ($CO_2$) emissiyasıdır. Enerji səmərəliliyi ölkədə artdığından 2000-ci illə müqayisədə karbon qazının emissiyası da 5 dəfəyə qədər azalıb.

Qeyd olunanlardan bəlli olur ki, enerji keçidinə xidmət edən bütün istiqamətlərdə Azərbaycan sürətlə irəliləyir. Bu öz əksini ölkədə energetika infrastrukturunun tam yenilənməsi, enerji təminatının yüksək səviyyədə və təhlükəsiz şəraitdə təmin edilməsi, sahəyə məqsədli investisiya və digər fəaliyyətlərdə öz əksini tapıb. Azərbaycanın enerji transformasiya sahəsində lider olması bu fəaliyyətlərin kompleks şəkildə həyata keçirilməsinin nəticəsidir. Bu səbəbdən COP-29 sessiyasının Bakıda keçirilməsi təsadüfi xarakter daşımır və ölkədə innovasiyaların inkişaf strategiyasının nəticəsidir.




**Bu gün Azərbaycanda dövlət müəssisələri ilə yanaşı, özəl sektorun da inkişafına xüsusi diqqət göstərilir. Eyni zamanda neft ölkəsi kimi tanınan ölkəmizin qeyri-neft sənayesinin də tərəqqisi istiqamətində davamlı işlər görülür. Bu sahədə sahibkarlara dəstək verilməsi, onlara müəyyən güzəştlərin nəzərdə tutulması, digər stimullaşdırıcı tədbirlər müxtəlif sənaye sahələrinin inkişafına bir təkandır.**

**Bu baxımdan Prezident İlham Əliyevin sərəncamlarına əsasən yaradılmış Sahibkarlığın İnkişafı Fondu, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətindəki fərmanları böyük əhəmiyyət kəsb edir.**











# Orqanik, sağlam və dadlı...

## "Made in Azerbaijan" brendli quru meyvə və çərəzlərimizə xarici bazarlarda tələbat artır







### 20-dən çox çeşiddə keyfiyyətli məhsul

Baş çəkdiyimiz müəssisə də dövlət dəstəyi ilə yeni texnologiyalar alaraq biznesini genişləndirir və təkmilləşdirir. Bu, "Made in Azerbaijan" brendinin formalaşmasında, xarici bazarda Azərbaycan məhsullarının tanıdılmasında, özünəməxsus və orqanik məhsulların istehsalı ilə fərqlənən "Crıspa Snacks"dir. Müəssisə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit mexanizmindən yararlanaraq fəaliyyətini genişləndirib. Fondun 5 faizli güzəştli kreditindən yararlanan şirkət 2018-ci ildən fəaliyyət göstərir.

Müəssisədə "Crıspa" və "Labulab" adı altında 20-dən çox çeşiddə məhsul istehsal olunur. Yerli bazarı quru meyvə və ənənəvi olmayan çərəzlə təmin edən şirkətin məqsədi həm də keyfiyyətli Azərbaycan məhsullarını xarici bazarda tanıtmaqdır.

Müəssisə İsrail, Dubay, Qətər, Rusiya və bir sıra Avropa ölkələrinə məhsullarını ixrac etsə də, bununla kifayətlənmək istəmir, xarici bazarlara çıxışını daha da genişləndirmək istəyir və bu istiqamətdə müəyyən işlər görür. Xüsusən Rusiyaya davamlı ixracı təmin etmək məqsədilə Moskvada keçiriləcək sərgidə Azərbaycan pavilyonunda yer almağa çalışır.

Müəssisədə istehsal prosesini müşahidə edirik. Şirkətin prioriteti xammaldan keyfiyyətli məhsul istehsal etməkdir.

### Məhsulun keyfiyyəti meyvənin sortundan asılıdır

Prosesi izləmək üçün ilk olaraq filterlənmiş suda yuyulan almaların olduğu vannaya yaxınlaşırıq. Yuyulan meyvələr sonra dilimləmə, soyma və özək çıxarma avadanlığına keçir. Daha sonra dilimlənmiş almalar işçilər tərəfindən paslanmaz çəlikdən hazırlanan qablara yığılaraq, çeşidinə uyğun üzərinə ədviyyatlar əlavə olunaraq qurutma avadanlığına ötürülür. Bu avadanlıqlar da ən son texnologiyalara əsaslanaraq paslanmaz çəlikdən hazırlanıb.

Ümumiyyətlə, istehsalatda istifadə olunan texnologiyalar Almaniya, İtaliya, Türkiyə və Çindən gətirilib. Hazırda müəssisədə üç meyvə qurutma avadanlığı fəaliyyət göstərir ki, bununla da aylıq 2-3 konteyner, hətta daha çox məhsul istehsal etmək mümkündür.

Müəssisənin icraçı direktoru Nahid Cabbarov deyir ki, keyfiyyətli məhsulun əldə olunması üçün meyvənin eyni sortda olması vacibdir: "Buna diqqət yetirərək məhsulun keyfiyyətini daim qoruyub saxlayırıq. Bu da ən böyük üstünlüyümüzdür. Müəssisədə həftəlik, aylıq istehsal planlamasını əvvəlcədən müəyyənləşdiririk".

### Heç bir kimyəvi qatqı olmadan qurudulan meyvələr

Müəssisədə almalı çipslərin hazırlanması prosesini müşahidə edirik. Burada mövsümdən asılı olaraq digər meyvələrin də qurudulması prosesi həyata keçirilir. Mövsümi meyvələr isə xüsusi xarakter daşıyır. Doğrudur, indi bütün fəsillərdə marketlərdə, demək olar ki, istədiyimiz meyvəni tapa bilirik. Lakin "meyvəni mövsümündə yeyərlər" deyiminə əsasən sağlam, təbii məhsullardan dadmaq üçün onun mövsümünü gözləməliyik.

Bu müəssisə də həm xammalın qiymətini nəzərə alaraq, həm də təbii, sağlam qida əldə olunması baxımından hər meyvənin mövsümündə qurudulmasına üstünlük verir. Əlbəttə ki, sağlam qida faktoru günümüzdə ən önəmli amillərdən biridir. "Bütün xəstəliklər yediyimiz qidalardandır" fikrini tez-tez eşidirik. Bu baxımdan insanlar sağlamlıqlarının qorunması üçün son illər xüsusən təbii qidalara üstünlük verirlər. Doğrusu, orqanik məhsulların qiyməti digərləri ilə müqayisədə daha yüksək olsa da, öncə sağlamlıq gəlir deyə pulumuzdan da keçməyə razı oluruq ki, təbii məhsullardan dadaq.

### Bir dəqiqədə 60 ədəd məhsul qablaşdırmaq mümkündür

"İnsanların sağlamlığını qorumağa çalışmaq" bu müəssisənin əsas missiyalarından biridir. Elə ona görə də heç bir kimyəvi qatqı olmadan meyvələri qurudurlar. Bizə məlumat verildi ki, Azərbaycana daha çox xaricdən meyvə quruları idxal olunur ki, onların da əksəriyyəti təbii deyil, müxtəlif kimyəvi qatqıları olan məhsullardır. Bu məhsullar çəki ilə satıldığından istehsal və yararlılıq müddəti də bilinmir. Onlara digər maddələr əlavə olunduğundan çəkiləri ağır gəlir. Digər tərəfdən qiymətləri aşağı olduğu üçün istehlakçılar xarici məhsul adı ilə daha çox onu alırlar. Şirkət məhsullarının istifadə müddəti bir ildir. Hər hansı kimyəvi qatqılar olduğu halda bu müddəti uzatmaq olar. Ümumiyyətlə, bir məhsulun xarab olma müddəti onun içindəki su aktivliyindən asılıdır. Yəni məhsulda nəm faizi nə qədər çoxdursa, oksigenlə əlaqəyə girərək daha tez xarab olur.

İstehsal prosesini izlədikdən sonra isə qablaşdırma zonasına keçirik. Müəssisə istehsal etdiyi məhsulları özü qablaşdıraraq satışa göndərir, eyni zamanda bəzi xarici məhsulların distribütorluğunu da həyata keçirir. Proseslə bağlı bizə istehsal və texniki işlər üzrə direktor Samir İbrahimov məlumat verir. Bəlli olur ki, öncə üzlük hazır vəziyyətə gətirilir və paket əmələ gəlir. Məhsulun istehsal tarixi və yararlılıq müddəti aparat vasitəsilə paketin üzərinə qeyd olunur. Paketləməyə hazır avadanlığın bunkerindəki meyvə quruları paketə tökülür, daha sonra paketin içindən oksigen çıxarılaraq nitrogen qazı vurulur. Bu proses çox ani baş verir. Ağzı bağlandıqdan sonra çəkinin dəqiqliyinə riayət etmək üçün məhsullar avadanlığın tərəzisindən keçir. Standart çəkiyə uyğun olmadıqda avadanlıq məhsulu kənarlaşdırır".

Avadanlıqların istehsal gücü isə məhsulun çəkisinə görə fərqlənir. Bir dəqiqədə 40 ədəd 30 qramlıq, 20 ədəd 100 qramlıq məhsul qablaşdırmaq mümkündür.

Məhsulların keyfiyyətə uyğunluğu həm xammaldan, həm də hazır məhsuldan nümunələr götürülərək laboratoriyada keyfiyyəti yoxlanılır.

### Məhsul itkiyə getmir - yararlı hissəsi qurudulur, yararsızından təbii şirə hazırlanır

"Crıspa Snacks" həm də sıfır tullantı ilə çalışan müəssisələrdəndir. İnkişaf etmiş ölkələrdə geniş yayılan "sıfır tullantı" prinsipini əsas götürən müəssisə bununla həm də ölkəmizdə də belə istehsal prosesinin geniş yayılmasına dəstək verməyə çalışır.

Quru meyvə istehsalında meyvənin 60 faizi istehsala yararlı olsa da, 40 faizi belə olmur - meyvənin alt, üst hissələri və ya yanlış doğrama nəticəsində. Müəssisədə qalan həmin 40 faiz alma avadanlıqda püre halına gətirilərək hidro presdə sıxılır və təbii alma şirəsi alınır. Bu şirə sobada bəkməz halına gətirilir və digər hissəsi filterlənmiş su ilə qarışdırılaraq alma sirkəsi hazırlanır.

Qarşıdakı illərdə digər mürəbbələrin də fərqli konseptdə hazırlanması, həmçinin turşu, sous istehsalı planlaşdırılır. Eyni zamanda müəssisədə həm qablaşdırılmış, həm də açıq şəkil tropik və subtropik meyvə quruları da hazırlanacaq. Bəziləri qablaşdırılaraq, digərləri isə çəki şəklində satılacaq. Sitrus meyvələri yerli bazarda olsa da, tropik məhsullar idxal ediləcək. Bu baxımdan müxtəlif ölkələrdəki təcrübədən istifadə edərək tropik meyvələrin Şri-Lankadan yarıqurudulmuş şəkildə gətirilməsi planlaşdırılır. Həmin meyvələri istənilən formada, keyfiyyətdə yenidən qurudaraq qablaşdırmaq mümkün olacaq. Bu, daha uğurlu və az maliyyə tələb edən üsuldur.

Hazırda istehsalda istifadə olunan meyvələr Azərbaycanın şimal bölgəsindən hektarlarla meyvə bağları olan şirkətlərdən alınır. Bunun da əsas səbəbi həmin şirkətlərin sortlama avadanlıqlarının olmasıdır.

### Məhsulların saxlanıldığı soyutma sistemi, temperatura diqqət

Qablaşdırma prosesini izlədikdən sonra isə məhsulların saxlanıldığı soyutma sistemi ilə təchiz edilmiş otağa daxil oluruq. Məhsullar 18 dərəcədə saxlanılmalı olduğu üçün daim otağın temperaturuna diqqət yetirilir. Buradan isə sifarişə hazırlanaraq birbaşa satışa göndərilir.

Yerli bazardakı əksər supermarketlərlə çalışan müəssisənin məhsullarını bu ildən həm də pərakəndə satış nöqtələrinə çatdırılması düşünülür, eyni zamanda kinoteatrlar, hotel, restoran və digər obyektlərə də satış planlaşdırılır.

"Made in Azerbaijan" brendinin dünyada tanınması üçün 6 ildir keyfiyyətli məhsul istehsalına çalışan müəssisənin əsas məqsədlərindən biri də ideyaları, hədəfləri olan, daim yaxşı fundament formalaşdırmaq istəyən Azərbaycan şirkəti qurmaqdır. Hazırda müəssisədə işin 60-70 faizi avtomatlaşdırılıb, 20-dən çox işçi çalışır.

Biznesin yazılmamış qanunlarından olan "yerli bazarda satış xərcləri qarşılayır, ixracdan qazanılan isə şirkətin qazancıdır" devizinə əsasən ixracı genişləndirməyi əsas hədəf seçən şirkət bununla bağlı istehlakçılar arasında formalaşmış yanlış fikirləri də dəyişdirmək istəyir. Müəssisə keyfiyyətli, yaxşı məhsulların xarici ölkələrə göndərilməsi, geridə qalan məhsulların yerli bazara satılması fikirlərini kökündən dəyişməyi düşünür və bu istiqamətdə səylərini davam etdirir. Çünki şirkət ilk növbədə öz ölkəsini, vətəndaşını keyfiyyətli məhsulla təmin etməyi qarşısına məqsəd qoyub.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Kapital qoyuluşunun əsas yükünü dövlət çəkir

## Bugünkü qlobal iqtisadi geriləmə fonunda başqa yol yoxdur

**Qlobal miqyasda baş verən siyasi gərginlik və qarşıdurmanın iqtisadi tənəzzülə səbəb olmasını hiss etməyən ölkə yoxdur. Hazırda dünya iqtisadiyyatında artım dinamikası aşağıdır. Hətta həmişə iqtisadi artımda yüksək nəticələrə nail olan Çində də azalma müşahidə olunur.**

İqtisadi fəallığın azalması bir sıra Avropa ölkələrindən də yan keçmir. İqtisadi inkişaf tempi dinamik və əhalinin sosial vəziyyəti yüksək olan həmin ölkələrdə bu gün bir sıra problemlər yaşanır. Dünyanın nəhəng iqtisadiyyatına malik və valyutası beynəlxalq dəyər ölçüsü olan ABŞ-də də vəziyyət ürəkaçan deyil. Bir sözlə, dünya üçün problemlər yaradanların özləri problem içindədirlər.

Qərb tərəfindən Rusiyaya və dolayısı ilə bir çox ölkələrə tətbiq olunan sanksiyalar və o üzdən ticarət əlaqələrinin zəifləməsi son anda qlobal kapital dövriyyəsinə də mənfi təsir göstərib. Yəni dönərli valyutaya sahib olan Qərb sərmayədarları nəhəng bazarlarda kapital qoyuluşundan məhrum olublar. Belə geri dönüş bir çox iri kapital sahibi olan banklarda ciddi sıxıntılar yaşadıb.

Məlumdur ki, dünya iqtisadiyyatının dinamikasını təmin edən üç əsas prinsip var: istehsal, ticarət və investisiya. Bu qaydaların hamısı bir-birinin inkişafını təmin edir. İndi bunların başlıca elementlərindən biri olan investisiya qoyuluşu böyük ölçüdə azalıb.

Prezident İlham Əliyev ölkədə iqtisadiyyatın davamlı kapitallaşmasına xüsusi əhəmiyyət verir. Bu səbəbdən ölkədə əlverişli investisiya mühiti yaradılır, dövlət əksər qlobal layihələrin reallaşmasında investor kimi çıxış edir, paralel olaraq özəl sektoru da sərmayəçi kimi belə layihələrə qoşulmaları üçün stimullaşdırır və s.

Ötən il və cari ilin yanvar ayı üzrə kapital qoyuluşu ilə bağlı statistik rəqəmlər dövlətin iqtisadi və sosial sahələrə kapital qoyuluşunda göstərdiyi aktivliyini bir daha sübut edir. Keçən il ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün mənbələrdən əsas kapitala yönəldilmiş 20 milyard 296,6 milyon manatın 56,1 faizi dövlətə məxsus olmuşdur. Düzdür, dünyada liberal iqtisadiyyatda kapital qoyuluşunda özəl sektor öndə olur. Amma dövlətimiz bu çətin anda iqtisadi dinamikanın aşağı düşməməsi, sosial problemlərin yaranmaması və sahibkarlığın inkişafına zərər dəyməməsi üçün belə doğru olan addımlar atmağa məcburdur.

Bu tendensiya cari ildə də davam edir. Belə ki, ilin ilk ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala qoyulan 1 milyard 553 milyon manatın 66,5 faizi dövlət tərəfindən yatırılmışdır. Onu da qeyd edək ki, hesabat dövründə Azərbaycan iqtisadiyyatına qoyulan kapitalın 82,7 faizini daxili sərmayə təşkil etmişdir. Bu vəsaitin 47,1 faizi nəqliyyat və anbar təsərrüfatına, 35,8 faizi sənayeyə və 13,2 faizi tikinti sektoruna sərf olunmuşdur.

Cari ilin yanvar ayında neft-qaz sektoruna 523,1 milyon manatlıq vəsait yönləndirilmişdir. Qeyri-neft-qaz sektorunun inkişafına sərf edilmiş 1 milyard 29,9 milyon manatlıq vəsaitin 32,4 milyon manatından isə qeyri-neft-qaz sənayesinin inkişafında istifadə edilmişdir.

Dünyada baş verən gərgin siyasi proseslərə baxmayaraq, Azərbaycanda olan münbit investisiya mühiti yabançı sərmayənin ölkəmizə axınının qarşısının kəsilməsinə imkan verməyib. Belə ki, təkcə ötən ay xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala 248,7 milyon manat vəsait yönəldilmişdir. Bu maliyyənin 92,5 faizi Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığın, ABŞ-nin, Türkiyənin, İsveçrənin, Yaponiyanın, Rusiyanın, Norveçin, İranın və Fransanın sərmayədarlarına məxsus olmuşdur.



Ölkə iqtisadiyyatına kapital qoyuluşu iqtisadi inkişaf dinamikamızı təmin edən əsas faktorlardan biri olaraq qalır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar ayında ölkə üzrə 9 milyard 131 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz azalmış, qeyri-neft-qaz sektorunda 12,3 faiz artmışdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan XİN Paşinyanın "France 24" telekanalında səsləndirdiyi iddialara cavab verib

**Ermənistanın baş naziri Nikol Paşinyanın Fransanın "France 24" telekanalına verdiyi müsahibədə ölkəmizə qarşı yenidən səsləndirdiyi əsassız iddialar bölgədə qəsdən gərginlik yaradaraq, sülh prosesinə növbəti zərbə vurmaq məqsədi daşıyır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Ermənistanın baş nazirinin səsləndirdiyi iddialara dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində qeyd edilib.

Bildirilib ki, Almaniya Kanslerinin təşəbbüsü ilə liderlər arasında keçirilmiş sonuncu görüşdən sonra Ermənistan tərəfindən bu kimi açıqlamalar verilməsi və bunun üçün məkanın məhz Fransa olaraq seçilməsi, Almaniyanın səylərinə Ermənistan tərəfindən hörmətsizlik olmaqla, Fransa tərəfindən sülh prosesinə davam edən mənfi təsirlərin göstəricisi kimi qiymətləndirilir.

"Guya Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşması, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə əməl etmədiyi kimi iddialar mövcud faktların açıq-aşkar təhrif olunması və beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Son zamanlar kütləvi hərbiləşmə siyasəti aparan, bölgədə 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistan tərəfinin bu addımları ört-basdır etmək məqsədilə, "Qərbi Azərbaycan İcması" üzrə çağırışları, eləcə də məhz Ermənistanın əsassız bəyanatlarına verdiyi cavabları bəhanə kimi gətirərək ölkəmizin müharibəyə hazırlaşdığını iddia etməsi tamamilə əsassızdır.

Suverenlik və ərazi bütövlüyünün tanınmasına, Azərbaycan-Ermənistan arasında sərhədlərin delimitasiyası məsələsində 1991-ci il Alma-Ata Bəyannaməsinə, bölgədə nəqliyyat və iqtisadi əlaqələrin qurulması üçün ölkələrin suverenliyi, yurisdiksiyası və bərabərliyi prinsiplərinə hörmətlə yanaşılmasının əhəmiyyətinə vurğu edən baş nazir Ermənistanın bu prinsipləri 30 ildən artıq müddətdə pozmasını unudub. Ermənistandan fərqli olaraq, 44 günlük müharibədən dərhal sonra məhz Azərbaycan Ermənistana 5 baza prinsipi əsasında sülh təklif edib. Ermənistan isə ölkəmizə qarşı davam etdirdiyi iddialarla bu prinsipləri pozmaqda davam edir.

Hər kəsə yaxşı məlumdur ki, Ermənistanın konstitusiyasında, qüvvədə olan qanunvericilik aktlarında, rəsmi məktublarında və bəyanatlarında, beynəlxalq təşkilatlar və məhkəmələrdə yaydığı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların davam etməsi Ermənistan rəhbərliyinin Azərbaycan-Ermənistan sülh gündəliyinin irəli aparılmasında maraqlı olmadığını təsdiq edir.

Müxtəlif beynəlxalq platformalardan istifadə etməklə ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə və Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün yaranmış imkanlardan istifadə etməyə çağırırıq", - deyə XİN-in şərhində vurğulanıb.

## Fransa açıq-aşkar separatizmə dəstək verir

### Ermənistan isə yenə təhlükəli geosiyasi ambisiyaların alətinə çevrilib

**Fransa Cənubi Qafqazda münaqişə ocağının qalmasında maraqlı tərəf kimi Ermənistana dəstəyini davam etdirir. Bunu Fransa prezidenti Emmanuel Makron Ermənistanın baş naziri Paşinyanla mətbuata birgə çıxışları zamanı da təsdiqlədi. Xüsusən Ermənistanı silahlandırması, müdafiə nazirinin İrəvana səfəri və iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq sazişlərinin bağlanması da Parisin niyyətini açıq-aydın göstərir.**



Milli Məclisin deputatı Jalə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Münxen Təhlükəsizlik Konfransı zamanı Azərbaycan və Ermənistan arasındakı danışıqlarda Fransa iştirak etməyə çox cəhd göstərsə də, buna nail ola bilmədi və danışıqlar prosesindən kənarda qaldı.

Deputat qeyd edib ki, Fransa bu günə qədər düşünülməmiş, beynəlxalq hüquqazidd addımlarını atmağa davam edir: "Təəssüflər olsun ki, Fransa dövlətinin başçısı Makron davamlı olaraq həm özünü, həm də ölkəsini gülünc vəziyyətə salan sərsəm açıqlamalar verir. Azərbaycana qarşı son çıxışı da heç bir əsası olmayan iddialardan ibarət idi. Bu iddialar Azərbaycan ərazisində - Qarabağda ermənilərin yerləşdirilməsi, silahlanma ilə bağlıdır və təbii ki, bütün bunlar birbaşa separatizmə xidmət edir. Məqsəd ermənilərin yenidən Azərbaycan ərazisində öz mənfur niyyətlərinə çatmaq istəyidir. Ermənistan yenə çox təhlükəli geosiyasi ambisiyaların alətinə çevrilib və bu kimi addımlar təkcə Azərbaycan üçün deyil, ümumilikdə Cənubi Qafqaz xalqları üçün təhlükə mənbəyidir. Əlbəttə ki, təhlükəli tendensiyanın qarşısı mütləq alınmalıdır".

J.Əliyeva vurğulayıb ki, Azərbaycanın geosiyasi və geocoğrafi mövqeyinin güclənməsi ölkəmizi bölgədə və dünyada söz sahibinə çevirir. Prezident İlham Əliyev fevralın 7-də keçirilmiş prezident seçkilərində əldə etdiyi böyük qələbədən sonra Azərbaycan parlamentində andiçmə mərasimində çıxışında qeyd etdiyi kimi, sarsılmaz daşları yerindən tərpətdik və sarsılmaz daşları yerindən tərpətdiyimiz üçün bizə qarşı hücumlar, təzyiqlər artacaq. Bəli, biz bunu gözləyirik və cənab Prezidentin də söylədiyi kimi, bu gün Azərbaycan bütün təhdidlərə, təzyiqlərə cavab vermək gücündədir.

Azərbaycanın Zəngəzur dəhlizinin açılması istiqamətində qətiyyətli addımlar atdığını deyən deputat qeyd edib ki, bu vəziyyət qarşı tərəfi, bir çox Qərb dövlətlərinin əlində alətə çevrilmiş Ermənistanı və onun havadarlarını narahat edir. "Qərbin məkri, əslində, Azərbaycanın iradəsi və apardığı düzgün siyasət nəticəsində yenə fiaskoya uğrayacaq. Fransanın Ermənistana növbəti dəfə yardımları, silah vermək təşəbbüsləri, əlbəttə ki, beynəlxalq ictimaiyyət tərəfindən və təşkilatlar tərəfindən qınanmalı olan çox vacib bir amildir. Düşünürəm ki, özünü demokratiya beşiyi adlandıran, demokratik dəyərlərə sadiqliyini, ən azından, nümayiş etdirmək istəyən təşkilatlar və ölkələr bu vəziyyətlə barışmamalı və öz mövqeyini bildirməlidirlər".

J.Əliyeva sonda vurğulayıb ki, bu gün Fransanın Ermənistanı silahlandırması bölgədə yeni münaqişə ocağının alovlanmasına səbəb ola bilər ki, bu da yolverilməzdir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Azərbaycan erməni separatizminin baş qaldırmasına imkan verməyəcək

### Makronun təhriki ilə müharibə avantürasına qapılan Paşinyan Ermənistanı məhvə aparır

**"Ermənistanı silahlandırmaqla, hansı ki Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu, ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər? Heç nə..."**



Prezident İlham Əliyevin dünyaya bəyan etdiyi kimi, başda Fransa olmaqla, arxalandığı qərəzli Qərb dairələri müharibə avantürasına qapılan Ermənistanı məğlubiyyətlər sindromundan, məhv olma təhlükəsindən xilas edə bilməyəcək.

İrəvanın Makronun timsalında Qərb ağalarının əmri, qızışdırması ilə revanşa qapılaraq ağılsız addımlar atması, Fransanın verdiyi köhnə-külüş hərbi texnikalara güvənərək "Dəmir yumruq" vasitəsilə cəhənnəmə göndərilən erməni separatizmini xortlatmaq kimi murdar niyyətə düşməsi isə öz başında çatlayacaq.

### Sərsəm ideologiyanın qalıqları

2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatda Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarması ilə bağlı idi. Lakin Vətən müharibəsindən sonra Ermənistan Fransanın başçılıq etdiyi bəzi xarici havadarlarının dəstəyi ilə bu öhdəliyini yerinə yetirməkdən yayınırdı, Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını "yadından çıxararaq", ölkəmizə qarşı siyasi, hərbi təxribatlarını intensivləşdirirdi. Qərəzli Qərb təsisatlarına güvənən Paşinyan hətta ötən ilin sentyabrında Qarabağda qondarma "prezident seçkiləri"nə dəstək göstərmək kimi axmaq cürət də nümayiş etdirmişdi.

Ancaq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Qarabağda apardığı antiterror tədbirləri nəticəsində bütün ərazilərində suverenliyini tam bərpa etdi. Cəmi 23 saata illərdir sürdürülən sərsəm "böyük Ermənistan" planları alt-üst edildi, qanunsuz rejimin "bayraq" adlandırdığı əski parçası isə xuntaçıların qoltuğuna verildi...

Ancaq görünən odur ki, Paşinyan bu sadalananlardan heç də nəticə çıxarmayıb və yenidən separatizmə açıq dəstək verməklə məşğuldur.

Belə ki, Azərbaycanın 2023-cü ilin sentyabrında apardığı 23 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağdakı separatçı rejimin ləğvi elan olunsa da, hazırda Ermənistanda separatçıların təşkilatlanması və fəallaşması davam edir. Məsələn, İrəvanda üzərində "Arsax bayrağı" dalğalanan "Arsax nümayəndəliyi"nin saxlanması, Vardan Oskanyanın rəhbərliyi ilə "Arsax xalqının vətənə qayıdışı"nı koordinasiya edəcək komissiyanın yaradılması, 20 fevral Qarabağda separatçı hərəkatın başlamasının ildönümü günü "Arsax" "rəhbərləri"nin yenidən üzə çıxması, Ermənistanın mətbuatında yayılan məlumatlara əsasən, keçmiş separatçı rejimin "nümayəndələri"nin gizli olaraq Ermənistan parlamentinin fraksiyaları və siyasətçilərlə çoxsaylı görüşlər keçirməsi və sair faktlar da buna bariz nümunədir.

Eyni zamanda Ermənistanın konstitusiyasında, qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar da unudulmamalıdır.

### Paşinyanın məkrli oyunları

Bütün bunlar Ermənistanın hələ də Azərbaycana qarşı ərazi iddiası güddüyünü, beynəlxalq hüququ ayaqlar altına atdığını açıq göstərir. Həmçinin Paşinyanın riyakarlığını, sözü ilə əməlinin qətiyyən üst-üstə düşmədiyini ortaya qoyur.

Bir tərəfdən Ermənistan baş naziri Azərbaycanın ərazi bütövlüyünü tanıması haqda bəyanatlar verir, digər tərəfdən də separatizmi dəstəkləyir ki, bu da İrəvanın danışıqlar prosesində qeyri-səmimi olduğunu sübut edir. Həmçinin də Ermənistanın Fransa tərəfindən sürətlə silahlandırılması onu deməyə əsas verir ki, İrəvan sülhə deyil, müharibəyə hazırlaşır.

Ancaq o da bir ayrı gerçəklikdir ki, baş nazirin bu "oyun"u yenə də Ermənistanı məğlubiyyətlərə, böhrana, məhvə sürükləyir...

Paşinyanın bir vaxtlar Şuşada yallı getməsinin, Xankəndidə "Qarabağ Ermənistandır nöqtə" hədyanını etməsinin təcavüzkar Ermənistana, sərsəm erməni ideologiyasına necə baha başa gəldiyini bütün dünya xatırlayır.

Və əlbət "dəmir yumruğ"un tarixi dərslərini ən yaxşı yadında saxlayan da Ermənistanın özüdür. Buna baxmayaraq, Fransanın qızışdırması ilə İrəvan erməni separatizminə dəstək verir, yenidən müharibəyə iştahlanır.

Amma Paşınyan ağlını başına yığmalı, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdiyi kimi, buna reallıqda da əməl etməli, Ermənistanda Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən separatçıların fəaliyyətinə dərhal son qoymalıdır.

Əgər Ermənistanda separatçı rejimin qalıqlarının saxlanması davam edərsə, Azərbaycanda da Qərbi Azərbaycanın mühacirət hökumətinin formalaşdırılmasına başlanması zərurət olacaq.

Bir sözlə, Azərbaycan milli maraqlarını təhdid edən bütün fəaliyyətlərin qarşısını hər zaman qətiyyətlə alacaq. Sülhə yox, separatizmə dəstək verməsi, revanşa qapılması isə nə Ermənistanı sürükləndiyi böhrandan, nə dalan ölkə olmaqdan, nə də məğlubiyyətlər sindromundan xilas edəcək.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Fransanın iddiaları tamamilə əsassızdır

**Fransa prezidenti Emmanuel Makronun Ermənistanın baş naziri ilə birgə mətbuat konfransında ölkəmiz əleyhinə olan və Ermənistanı birtərəfli müdafiə edən iddiaları tamamilə əsassızdır. Şərti sərhəddə 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə, Fransanın məhz Azərbaycanı qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirməsi açıq-aşkar qərəzli yanaşmadır.**



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib ki, Makron türk düşmənidir. O, artıq siyasi səhnədə karyerasını məhv etmiş dövlət başçısıdır. Fransa prezidenti ermənipərəst mövqeyi, qərəzli yanaşması və kolonialist mahiyyəti ilə siyasi cəhətdən tamamilə rəzil vəziyyətə düşüb. Təsadüfi deyil ki, Fransanın müstəmləkəçilik keçmişi, qanunazidd əməlləri məhz Makronun hakimiyyəti dövründə ifşa olunur. Bir daha sübuta yetirilir ki, Fransanın tarixi utancverici səhifələrlə doludur. Öz dövlətinin tarixi keçmişini ört-basdır etmək üçün Azərbaycana və Türkiyəyə, ümumilikdə islam dünyasına qarşı qərəzli mövqe tutan Makron atdığı addımlarla heç bir nəticə əldə edə bilməz. Əksinə, Fransanın belə məkrli planları özünün daha böyük miqyasda ifşasına səbəb olub.

Deputat bildirib ki, Azərbaycanla Ermənistan arasında münaqişənin başa çatdığı, hətta 5 aya yaxın heç bir atışmanın olmadığı bir vaxtda belə, Fransa dinc dayanmadı: "Davamlı olaraq revanşistləri həvəsləndirir, onlara silah-sursat vəd edir. Makron hər vəchlə Cənubi Qafqaza fitnə gətirmək niyyətindən, xüsusilə də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasının qarşısını almaq, regionda yeni konflikt ocağı yaratmaq istəyindən əl çəkmir. Görünür, Makron Azərbaycanla bağlı mövqeyini dəyişməyəcək. Lakin unutmasın ki, istənilən təxribat qarşılığında biz Fransanın və Ermənistanın cavabını ən ağır şəkildə verəcəyik".

Məlahət İbrahimqızı söyləyib ki, Münxen görüşlərindən sonra Fransa və Ermənistan liderlərinin görüşü gözlənilən idi: "Münxendə baş tutan görüşlər ciddi əhəmiyyətə malik olduğuna görə Paşinyanın Makrona hesabat verməsi labüd idi. Ona görə də "iki bacı" görüşüb son baş verən hadisələri müzakirə edib, yenə də özlərinə xas riyakarlıqla Azərbaycan əleyhinə ittihamlar səsləndiriblər. Otuz ilə yaxın hüquqları pozulmuş, dədə-baba yurdlarından didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransa yenə ermənilərin müdafiəsinə qalxıb. E.Makronun könüllü şəkildə Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir".

Deputat yekunda qeyd edib ki, Ermənistanı ən çox silahlandırmağa və revanşistləri həvəsləndirməyə çalışan dövlət olaraq Fransanın bu gün guya vasitəçilik etmək üçün dəridən-qabıqdan çıxması absurddur: "Azərbaycan kimi qətiyyətli və prinsipial dövlətə qarşı Fransanın məkrli planları, regionda yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq cəhdləri heç bir nəticə verməyəcək".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## Fransanın məkrli siyasəti uğursuzluğa məhkumdur

**Gözlənildiyi kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın Fransaya səfəri, həmin ölkənin prezidenti Emmanuel Makronla görüşü, verilən açıqlamalar Cənubi Qafqaz bölgəsində sülhə xidmət etmədi. Fevralın 21-də Parisdə Fransa prezidentinin və Ermənistanın baş nazirinin birgə mətbuat konfransı zamanı səsləndirilən fikirlər bunu bir daha təsdiq etdi. Mətbuat konfransında Azərbaycana qarşı əsassız iddialar səsləndirən Emmanuel Makron bir daha öz qərəzli və ədalətsiz mövqeyini nümayiş etdirdi.**



### Emmanuel Makronun Azərbaycana qarşı yalan və böhtanlarla dolu iddilarının əsl səbəbi...

İlk növbədə bu tarixi həqiqətləri görmək və etiraf etmək lazımdır ki, Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində öz ərazilərində Ermənistan silahlı qüvvələrinin otuz ilə yaxın davam edən işğalına son qoydu. Ermənistan Azərbaycanın böyük zəfərindən və kapitulyasiya aktına imza atdıqdan sonra da işğalçılıq siyasətindən, terrorçu xislətindən və Qarabağ, Şərqi Zəngəzur ərazilərinin sərvətlərindən əlini çəkmədi. Qarabağ bölgəmizdə Vətən müharibəsindən sonra da məkrli niyyətlərini həyata keçirməyə çalışan separatçılara dəstək verdi. Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında apardığı lokal xarakterli antiterror əməliyyatı ilə həmin separatçıları və Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini məğlubiyyətə uğratdı. Azərbaycanın öz suverenliyini tam bərpa etməsi ilə ədalət qələbə çaldı.

Qarabağda yaşayan erməniəsilli sakinlər ölkəmizi könüllü şəkildə tərk etdilər. Onlar özləri də beynəlxalq KİV nümayəndələrinə müsahibələrində belə dedilər. Heç bir zorakılığa məruz qalmadan, öz istəkləri ilə Ermənistana getdiklərini, geri dönmək niyyətində olmadıqlarını söylədilər. Elə həmin insanlar kimi, rəsmi İrəvan da qayıdış barədə düşünmədiyini açıq-aydın göstərir.

Fevralın 21-də Parisdə keçirilən brifinqdə Fransa prezidenti Makron çıxışında qeyd etdi ki, İrəvan Fransanın Ermənistana dəstəyinə arxalana bilər. Qarabağ erməniləri "ən tez, maneəsiz və təhlükəsiz öz evlərinə qayıtmaq hüququnu almalıdırlar". Amma problemin olmadığı yerdə problem axtaran Fransa hökuməti otuz ildən çoxdur ki, Ermənistandan qaçqın düşən 200 mindən çox azərbaycanlının hüquqlarının bərpa edilməsinə əngəl olanları, onların dədə-baba torpaqlarına, doğma ocaqlarına qayıtmalarına şərait yaratmayanları "görmür". Əvəzində Azərbaycana qarşı böhtanlarla dolu iddilar irəli sürür, yanlış təsəvvürlər yaratmaq üçün özünü oda-közə vurur. Əslində, Fransa hökumətinin bu çırpınışlarının səbəbi ermənipərəstliyindən daha çox Cənubi Qafqaza soxulmaq üçün fürsət axtarmasıdır. Fransa prezidenti Emmanuel Makronun qeyd etdiyimiz tədbirdə çıxışı da bu istəyin, bu məqsədin təzahürüdür.

Son zamanlar islamofob, türkofob siyasət aparan Fransa, bununla yanaşı, Cənubi Qafqaz regionunda sülhün bərqərar olmasına qarşı fəaliyyət göstərir. Ermənistanı silahlandırmaq marağı və həmin istiqamətdə gördüyü işlərlə də bunu təsdiq edir. Sözügedən brifinqdə Emmanuel Makron bildirdi ki, Fransa Ermənistanla müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirməyə davam edəcək. Fransa Ermənistana müdafiə silahlarının tədarükünə razılıq verib.

### Fransanın bölgədə sülhə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasəti qəbuledilməzdir

Parisdə fevralın 21-də Ermənistan baş naziri ilə birgə mətbuat konfransında Emmanuel Makronun Azərbaycana qarşı səsləndirdiyi və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pisləyən Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) otuz ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışmasının tamamilə yersiz olduğu bildirildi: "Bununla yanaşı, Alma-Ata Bəyannaməsi və müəyyən xəritələr çərçivəsində ərazi bütövlüyünün vacibliyinə toxunan Fransa tərəfinin nəyə görə məhz bu kimi razılaşmalara zidd olaraq 30 ilə yaxın müddətdə davam etmiş Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına, habelə hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına qarşı çıxmaması sualına aydınlıq gətirməsi daha faydalı olardı".

Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində vurğulanıb ki, heç bir təhrikedici amil olmadan 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə, Azərbaycanın qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbuledilməzdir və bu kimi qərəzli yanaşmalara son qoyulmalıdır. Azərbaycan Xarici İşlər Nazirliyi bir daha bəyan etdi ki, Fransanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasəti heç bir nəticə verməyəcək.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Bakı Mühəndislik Universitetində sərgi-təqdimat keçirilib

**Bakı Mühəndislik Universitetində (BMU) "Mühəndis hazırlığında nəzəri biliklərlə yanaşı praktiki bacarıqların rolu" mövzusunda sərgi-təqdimat keçirilib.**



Universitetin Avtomatika, telekommunikasiya və energetika kafedrasının 5 illiyinə həsr olunmuş tədbirdə professor-müəllim heyəti və tələbələr, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

BMU-nun rektoru Yaqub Piriyev müasir çağırışlar və qlobal tendensiyalar fonunda həm ali, həm də peşə təhsili müəssisələrində rəqabətqabiliyyətli kadr hazırlığının vacib məqamlarına, eyni zamanda qoyulan hədəflərə nail olunması üçün təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsinə diqqət çəkib.

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində də İKT, elektronika, elektrik mühəndisliyi, avtomatlaşdırma və inşaat kimi vacib istiqamətlər üzrə kadr hazırlığının aparıldığını xatırladan rektor Mərkəzin məzunlarının gələcəkdə təhsillərini eyni istiqamətlər üzrə BMU-da davam etdiricəklərinə ümidvar olduğunu söyləyib. Sərgi-təqdimatın təşkili və tələbələrin bu prosesdə fəallığını yüksək dəyərləndirən rektor onlara uğurlar arzulayıb.

Çıxışlardan sonra sərgiyə baxış keçirilib, tələbələrin hazırladıqları qurğuların, maketlərin təqdimatı edilib.

# Qətər Milli Kitabxanasında "Qədim köklərə malik Azərbaycan mədəniyyəti" adlı kitab sərgisi açılıb

**Mədəniyyət günləri çərçivəsində Qətər Milli Kitabxanasında "Qədim köklərə malik Azərbaycan mədəniyyəti" adlı kitab sərgisi, həmçinin görkəmli şərqşünas-alim, akademik Yevgeni Bertelsin ərəb dilinə tərcümə olunmuş "Böyük Azərbaycan şairi Nizami" kitabının təqdimatı və "Üç dilin şairi - Məhəmməd Füzuli" adlı tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Qətərin dövlət katibi, Qətər Milli Kitabxanasının prezidenti doktor Həməd bin Abdulaziz Al-Kuvari Qətərlə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. O, Qətərdə Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsini mədəni əməkdaşlıq baxımından əlamətdar hadisə kimi səciyyələndirib, ölkəmizin nümayəndə heyətinə uğurlar arzulayıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli Qətərdə Azərbaycan Mədəniyyəti Günlərinin təşkilinə verdiyi dəstəyə görə bu ölkənin mədəniyyət naziri Şeyx Abdülrəhman bin Həməd Al Taniyə təşəkkürünü bildirib: "Ölkələrimizin rəhbərlərinin səmimi dostluq münasibətləri Azərbaycanla Qətər arasında müxtəlif sahələrdə əlaqələrin yüksək səviyyəyə çatmasında mühüm rol oynayıb. Siyasi-iqtisadi sahədə əməkdaşlıqda olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin inkişafı üçün çalışmalıyıq. Hər iki ölkənin zəngin mədəniyyətinin qarşılıqlı olaraq təbliğinə töhfə verəcək layihələr həyata keçirilməlidir".

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, bu il dünyaşöhrətli Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi qeyd edilir. Orta əsrlər Azərbaycan ədəbiyyatının inkişafında müstəsna rol oynamış Məhəmməd Füzuli öz əsərlərini Azərbaycan, ərəb və fars dillərində yazıb. Onun zəngin yaradıcılığı nəinki Azərbaycanda, bütün dünyada məşhurdur. Məhəmməd Füzulinin 530 illik yubileyinin Azərbaycandan kənarda ilk dəfə Qətər Milli Kitabxanasında keçirilməsi böyük əhəmiyyət kəsb edir, rəmzi məna daşıyır.

Adil Kərimli çıxışının sonunda Qətərdə Azərbaycan Mədəniyyəti Günlərinin təşkilində zəhməti keçən hər kəsə minnətdarlığını bildirib.

Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov çıxışında iki ölkənin milli kitabxanaları arasında əməkdaşlıq haqqında məlumat verib. O, Qətərdə Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsinin kitabxana sahəsində də əlaqələrin dərinləşməsinə vəsilə olacağını deyib. Həmçinin akademik Yevgeni Bertelsin ərəb dilinə tərcümə olunmuş "Böyük Azərbaycan şairi Nizami" kitabı haqqında məlumat verib. "XII yüzillikdə yaşayıb-yaratmış Nizami Gəncəvi Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi nadir dühalardandır. "Böyük Azərbaycan şairi Nizami" kitabı dünyanın bir sıra dillərinə tərcümə olunub. 1940-cı ildə yazılmış bu fundamental elmi əsərin ərəb dilinə tərcümə edilməsi böyük ərəb dünyasının dahi Azərbaycan şairi və mütəfəkkirini daha yaxından tanımasına töhfə verəcək", - deyə K.Tahirov vurğulayıb.

Sonra böyük Azərbaycan şairi Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr olunan videomaterial nümayiş etdirilib.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Məhəmməd Füzuli yaradıcılığının ideya-bədii xüsusiyyətləri haqqında söz açıb, onun türk-islam dünyasında ədəbi düşüncəyə təsirindən danışıb.

Daha sonra muğam triosunun ifasında musiqi nömrələri səsləndirilib. Gənc xanəndələrin təqdim etdiyi muğam və təsniflər alqışlarla qarşılanıb.

Sonda tədbir iştirakçıları "Qədim köklərə malik Azərbaycan mədəniyyəti" sərgisi ilə tanış olublar. Qonaqlar, həmçinin milli şirniyyatlarımızın dadına baxıblar.

Qətərdə Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə fevralın 21-dən Azərbaycan Mədəniyyəti Günləri keçirilir. Mədəniyyət Günləri fevralın 24-dək davam edəcək.

# ADA Universitetində İtaliya-Azərbaycan Bağçılıq Sərgisi açılıb

**ADA Universiteti ilə İtaliyanın Bolonya Universitetinin birgə təqdim etdiyi "Davamlı Bağçılıq Sistemləri" sertifikat proqramının Bakı modulunun bağlanışı çərçivəsində İtaliya-Azərbaycan Bağçılıq Sərgisi keçirilib.**





AZƏRTAC xəbər verir ki, ADA Universiteti və İtaliyanın "MacFrut" sərgisinin təşəbbüsü, İtaliya-Azərbaycan Ticarət Palatası, (İTAZERCOM), "Caspian Agro" və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilati dəstəyi ilə ilk dəfə keçirilən sərgidə bağçılıq sahəsində fəaliyyət göstərən 20-dək İtaliya və Azərbaycan şirkəti iştirak edib. İtaliyanı təmsil edən şirkətlər əsasən kənd təsərrüfatı, qida texnologiyası və innovasiya üzrə, Azərbaycanı təmsil edən şirkətlər isə əsasən meyvəçilik, şitilçilik və quru meyvə istehsalı üzrə ixtisaslaşıblar.

Kənd Təsərrüfatı Nazirliyinin yüksəkvəzifəli şəxsləri, İtaliyanın Azərbaycandakı səfiri, ADA rəhbərliyi, bağçılıq sahəsi üzrə ixtisaslaşmış yerli və xarici ekspertlər sərgi ilə tanış olublar. Kənd təsərrüfatı məhsullarının nümayiş etdirildiyi sərgidə sertifikat proqramının iştirakçıları yerli və xarici şirkətlərin nümayəndələri ilə görüşüb, iş imkanları ilə tanış olublar.

Daha sonra "Davamlı Bağçılıq Sistemləri" birgə sertifikat proqramının Bakı modulunun bağlanış mərasimi keçirilib. Mərasim İtaliya-Azərbaycan Universiteti çərçivəsində yeni təqdim edilən "Kənd təsərrüfatı və qida elmləri" fakültəsinin dekanı Matteo Vittuarinin çıxışı ilə açıq elan edilib. Qeyd edilib ki, beş gün davam edən modul zamanı bağçılıq sahəsində çalışan mütəxəssislər üçün keçirilən təlimlərdə istehsalat, hökumət və akademik dairələrin nümayəndələri yerli kiçik və orta müəssisələrin aktual problemləri və çağırışlarına cavab tapmaq üçün fikir mübadiləsi aparıblar.

ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə çıxışı zamanı qeyd edib ki, ADA Universiteti kənd təsərrüfatı sahəsində beynəlxalq təcrübəyə, eləcə də bu sahənin inkişafı üçün lazım olan biliklərə malik peşəkarlar yetişdirir.

Tədbir Kənd Təsərrüfatı Nazirliyinin Mərkəzi Aparatının rəhbəri Azad Cəfərlinin çıxışı ilə davam edib və çıxış zamanı İtaliya-Azərbaycan Universitetinin nəzdində fəaliyyət göstərən Kənd təsərrüfatı və qida elmləri fakültəsinin insan kapitalının inkişafı və kənd təsərrüfatı və qida sahəsində tədqiqat işlərinin genişləndirilməsindəki rolundan bəhs edilib.

Daha sonra iştirakçılar Bolonya Universitetinin rektoru Giovanni Molari və Universitetin Kənd təsərrüfatı elmləri və texnologiyaları fakültəsinin direktoru Rosalbo Lanciottinin videomüraciətini izləyiblər.

Sonda İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri vurğulayıb ki, İtaliya ilə Azərbaycan arasında intellektual əməkdaşlıq olduqca vacibdir və sevindirici haldır ki, bu əməkdaşlıq təhsil sahəsində ADA Universiteti vasitəsilə həyata keçirilir.

Qeyd edək ki, sertifikat proqramının Bakı modulu zamanı tədqiqatçılar və beynəlxalq mütəxəssislərlə seminarlar, Azərbaycan və İtaliyada bağçılıq üzrə ixtisaslaşmış istehsalçılar arasında işgüzar görüşlər, o cümlədən peşəkar seminarlar keçirilib. Proqramın növbəti modullarının aprel və may aylarında keçirilməsi nəzərdə tutulub.

# "Doha Ekspo 2023"də Azərbaycanın Milli Günü çərçivəsində konsert proqramı təşkil olunub

**Fevralın 22-də Qətərdə "Doha Ekspo 2023" Beynəlxalq Bağçılıq Sərgisində keçirilən Azərbaycanın Milli Günü çərçivəsində axşam saatlarında konsert proqramı təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, ekspo sərgisindəki Milli Gündə Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə keçirilən konsertdə "Natiq" ritm qrupunun ifasında "Şuşanın ritmləri", "Mehriban", Azərbaycan ritmləri, "Cəngi", "Qaytağı", "Qarabağ" kompozisiyası, Xalq artisti Ənvər Sadıqov və "Buta" qrupunun ifasında "Fantaziya" və digər bəstələr, Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında "Odlar Yurdu" süitası, "Qaytağı" rəqsi, "Zəngəzur yallısı" təqdim edilib.

Xatırladaq ki, 2023-cü il oktyabrın 2-də başlayan və bu il martın 28-dək fəaliyyət göstərən "Doha Ekspo 2023"də Azərbaycan milli pavilyonla təmsil olunur. Azərbaycan pavilyonu Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılıb.

Qeyd edək ki, fevralın 21-dən Qətərdə, həmçinin Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Mədəniyyəti Günləri keçirilir. Mədəniyyət Günləri fevralın 24-dək davam edəcək.

# Oksigenə qlobal təhlükə

## Dünyada oksigenin 80 faizinin təminatçısı olan okeanlar ciddi təhdid altındadır

**Dünyadakı oksigenin təxminən 80 faizi əksəriyyətin düşündüyü kimi meşələrin deyil, məhz okeanların payına düşür. Bu baxımdan okean suları dünyanın ən əhəmiyyətli oksigen qaynağı və iqlim nəzarətçisi hesab edilir.**

Hazırda qlobal ekoloji problemlərdən biri dünya okeanlarının çirkləndirilməsidir. Yer səthinin geniş ərazisini əhatə edən okeanların çirklənməsi son otuz ildə xüsusilə artıb. Bunun ən mühüm səbəbləri plastik tullantılar, atmosferdə artan karbon qazı və dəniz yolu ilə daşınan neftin okeanlara tökülməsidir.

### Çirkliliyin ən böyük səbəbi

Okeanların həyatımızdakı rolu saymaqla bitməz: oksigen, qida, təmiz su, bərpaolunan enerji, iş yerləri, iqtisadi artım, iqlimə nəzarət və sairə. Yaşadığımız dövrdə əhalinin sürətlə artması, yeni sənaye mərkəzlərinin istifadəyə verilməsi, təbii sərvətlərdən düzgün istifadə olunmaması ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Okeanlar ən çox neft və neft tullantıları ilə çirklənir. Suyun üzərində əmələ gələn neft pərdəsi oksigenin sərbəst hövzəyə daxil olmasına maneçilik törədir, bu da bioresursların həyatını təhlükəyə salır. Nəticədə okeanlarda canlı aləm tükənir, balıq növləri azalır və ya yox olmaq təhlükəsi ilə üzləşir.

Okeanlar, həmçinin yağış və quraqlığı tənzimləyir, karbon dövranını və buna görə yerdəki istiliyi tarazlıqda saxlayır. İnsanları və heyvanları qidalandıran okean qida zəncirinin əsasını yaratmaqla yanaşı, ətraf-mühitin sağlamlığına da təsir edir. Okeanlar insan fəaliyyəti nəticəsində karbohidrogenlər, xam neft, neft məhsulları, toksiki metallar və radioaktiv maddələrlə çirklənir.

Okeanların çirklənməsinin ən mühüm səbəbi neftin çənlərdən, neft emalı zavodlarından və ya neft məhsulları daşıyan xətlərdən okeanlara tökülməsidir. Bu hal daşqınlar, qasırğalar və ya zəlzələlər kimi təbii fəlakətlər neft boru kəmərlərinə ziyan vurduqda və ya dəniz qəzalarına, eləcə də insan tərəfindən törədilən səhvlərə səbəb olduqda baş verə bilər.

Sənayedə istifadə olunan kömür, neft və təbii qaz kimi qalıq yanacaqların yanması nəticəsində atmosferə atılan karbon qazı okeanların çirklənməsinə səbəb olur. Atmosferdə yığılan karbon qazının təxminən 40 faizi okeanlar tərəfindən udulur. Okeana atılan zərərli tullantılar, ağır metallar və zəhərli kimyəvi maddələr ekologiyanı bərpası mümkün olmayacaq dərəcədə zədələyir. Bu maddələr ən çox insanların yaşadıqları və işlədikləri yerlərə yaxın toplanır. Bir çox xəstəliklərlə birlikdə içməli su problemi də yaradır.



### Okeanda olan plastiklərin əriməsi üçün 1000 il vaxt lazımdır

Bioloji ehtiyatlarla olduqca zəngin olan dünya okeanı qida zəncirinin böyük bir qismini təşkil edir. Okeanlarda yaşayan bütün canlılar insanın həyatında bioloji ehtiyat rolunu oynasa da, onlardan hələ ki, yalnız balıq, bəzi dəniz heyvanları və su bitkilərindən istifadə olunur. Lakin okean səthində qalan və ya kiçik hissəciklərə parçalanan plastiklər dəniz canlıları tərəfindən qida kimi qəbul edilərək istehlak edilir. Bu da tədricən onların məhvinə səbəb olur. Dəniz tısbağaları, delfinlər, balıqlar, köpəkbalığı, xərçəngkimilər və dəniz quşları okeanlardakı plastik çirklənmədən ən çox təsirlənən canlılardır.

Son onilliklər mikroplastiklər planetimizin hər yerinə yayılıb. Onlara Antarktikanın dəniz buzlaqlarında, okeanların ən dərin çuxurlarında yaşayan dəniz heyvanlarının mədələrində və içməli sularda rast gəlinir. Alimlər müəyyən ediblər ki, dünyada hər il istehsal olunan 300 milyon ton plastikin təxminən 8 milyonu külək, axın, kanal və gelgitlərlə okeanlara daşınır. Hazırda okeanda olan plastiklərin əriməsi üçün 1000 il vaxt lazımdır.

Plastikin tərkibindəki kimyəvi maddələr dəniz canlılarının məhv olmasına səbəb olmaqla yanaşı, insan orqanizminə də yol tapır. Bu toksik proses nəticəsində insanlarda xərçəng, ürək xəstəliyi, embrionun zəif inkişafı və hormonal dəyişikliklər də daxil olmaqla, bir sıra sağlamlıq problemləri yaranır.

Alimlərin bir qismi iddia edirlər ki, problemin həlli üçün okeanların təmizlənməsi və plastiklərin təkrar emalı deyil, onların istehsalının və istifadəsinin dayandırılması istiqamətində tədbirlər görülməlidir. Onların digər qismi isə insanların plastik məhsullardan tamamilə imtina etməyəcəyini bildirir və alternativ həll yolları axtarırlar. Bunun üçün bioloji parçalana bilən plastiklərin istehsalı və təkrar emal prosesinin yaxşılaşdırılması yönündə dünyanın inkişaf etmiş ölkələrinin mütəxəssisləri tərəfindən müvafiq tədqiqatlar aparılır.

### Dünyanı birlikdə qoruyaq

Qlobal iqlim dəyişikliyi, təbii ehtiyatların sürətlə tükənməsi və ətraf mühitin çirklənməsi təcili tədbirlərin görülməsi zərurətini yaradır. Gələcək nəsillərin sağlamlığını və təhlükəsizliyini təmin etmək üçün okeanın bəşəriyyətin qayğısına qaldığı kimi, bəşəriyyət də onun qayğısına qalmaq məsuliyyətini üzərinə götürməlidir. Yalnız belə olan halda ekosistemin tarazlığını qorumaq olar.

Ekoloji çirkliliyin, iqlim dəyişikliklərinin qarşısını almaq üçün dünya ölkələrinin birgə səy göstərməsi vacibdir. Bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkəmiz bu istiqamətdə müvafiq addımlar atır. Bu il COP29-un Azərbaycanda keçirilməsi bunun bir göstəricisidir. Belə mötəbər tədbirin ölkəmizdə keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi də beynəlxalq ictimaiyyətin Azərbaycana göstərdiyi etimad və güvəndir.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# REGİONLAR

## Gəncə şəhər rəhbərliyi ilə sakinlərin görüşü keçirilmişdir





**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Məhsəti Gəncəvi Mərkəzində növbəti dəfə vətəndaşlarla görüş keçirmişdir.**

YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanovun, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşlarının, bələdiyyə sədrlərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirak etdikləri görüşdə şəhər sakinləri onları rahatsız edən məsələlərdən danışmışlar. Səsləndirilən müraciətlərdə işlə təminat, müalicə, mənzil növbəliliyi və digər məsələlər üstünlük təşkil etmişdir.

Niyazi Bayramov vətəndaşların hər birini fərdi qaydada dinləmiş, qaldırılan problemlərin qısa zamanda aradan qaldırılması üçün müvafiq tapşırıqlar vermişdir. Bir çox məsələlər yerindəcə öz həllini tapmış, icra hakimiyyətinin fəaliyyət dairəsinə daxil olmayan məsələlərlə bağlı edilən müraciətlər isə aidiyyəti qurumlara ünvanlanması üçün qeydiyyata alınmışdır.

## Masallıda Milli Qəhrəman Səfərali Məmmədovun xatirəsi anılıb

**Masallı rayonunun Sərçuvar kəndində Azərbaycanın Milli Qəhrəmanı Səfərali Qurban oğlu Məmmədovun anım tədbiri keçirilib. Mərasim iştirakçıları qəhrəmanın büstü önünə tər güllər düzərək xatirəsini yad ediblər.**

Daxili işlər orqanlarında xidmət etmiş Səfərali Məmmədov Birinci Qarabağ müharibəsində şücaəti ilə fərqlənib. O, 1992-ci ilin fevralında Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni dəstələrindən xilas edən zaman döyüşərək şəhid olub. S.Məmmədov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Tədbirdə çıxış edən natiqlər Səfərali Məmmədovun həyat və döyüş yolunun hər bir Azərbaycan gənci üçün örnək olduğunu, Milli Qəhrəmanın





əziz xatirəsinin daim ehtiramla xatırlanacağını bildiriblər. Çıxış edənlər bu gün Səfərali Məmmədovun qisasının alınaraq uğrunda döyüşərək canını fəda etdiyi Vətən torpaqlarının işğaldan azad olunduğunu və həmin torpaqlarda Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev tərəfindən bayrağımızın ucaldıldığını vurğulayıblar.

Qeyd edək ki, Masallı şəhərindəki küçələrdən birinə, həmçinin cəsur döyüşçünün təhsil aldığı məktəbə S.Məmmədovun adı verilib. Oxuduğu məktəbin həyətində büstü qoyulub, qəhrəmana həsr olunmuş "Qəhrəman polis" adlı sənədli film çəkilib.

***Seyran CAVADOV, "Azərbaycan"***

## GDU-da mərkəzləşdirilmiş elektron idarəetmə sisteminin tətbiqinə başlanılıb

**Gəncə Dövlət Universitetində (GDU) elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi, təhsil sistemində idarəetmənin informasiyalaşdırılması məqsədilə EDUMAN proqram təminatının tətbiqinə başlanılmışdır.**



Yeni sistemin tətbiqi ilə əlaqədar universitetdə çalışan bütün əməkdaşlara və tələbələrə aid elektron məlumat bazası yaradılmış, şəxsi kabinetlər formalaşdırılmış, ixtisaslara aid tədris planları və sillabuslar sistemə daxil edilmiş, fənn üzrə qruplar yaradılmış, elektron cədvəllər tərtib olunaraq elektron jurnallar aktivləşdirilmişdir. Bundan başqa, tədrisin elektron idarə olunmasında iştirak edən professor-müəllim heyəti üçün təlimlər keçirilmiş, təlimatlar hazırlanaraq universitetin rəsmi internet saytına yerləşdirilmiş, auditoriyalar kompüterlərlə təmin edilmişdir.

## Goranboylu fermerlərin problemləri dinlənilib



**2023-cü ilin sentyabr ayından başlayaraq Kənd Təsərrüfatı Nazirliyinin vəzifəli şəxsləri bölgələrdə vətəndaşlarla görüşürlər. Növbəti görüş "Aqroservis" ASC-nin idarə heyətinin sədri Elmin Rəhmanovla goranboylu fermerlər arasında olub.**

ASC-nin sədri hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Görüşdə iştirak edən vətəndaşlara "Aqroservis" ASC-nin fəaliyyəti və fəaliyyət prinsipləri haqqında ətraflı məlumat verilib. Bildirilib ki, hazırda mövsümə uyğun mineral gübrələrin səyyar satış xidməti həyata keçirilir və bu xidmət mövsümün sonuna kimi davam edəcək. Fermerlər çox asanlıqla mineral gübrələrə olan tələbatını bu xidmət vasitəsilə qarşılaya bilərlər.

Sonra "Aqroservis" ASC-nin sədri bölgədə fəaliyyət göstərən iri nar bağı təsərrüfatına baş çəkib, bağlarda aparılan mövsümi işlərin gedişi ilə maraqlanıb, fermerlərin meyvə bağları üçün lazım olan texnika və mineral gübrələrlə bağlı suallarını cavablandırıb.

## Şəkili istehsalçılar aqrar sığortaya inanırlar

### ASF növbəti dəfə onların ziyanlarını qarşılayıb

**Şəkidə Aqrar Sığorta Fondu (ASF) və şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə təbiət hadisələrindən zərərçəkən fermerlərə sığorta ödənişi verilib.**

Aqrar Sığorta Fondu idarə heyətinin sədri Fuad Sadıqov və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun iştirak etdiklər tədbirdə aqrar sığorta haqqında geniş məlumat verilib. Bildirilib ki, 2023-cü ildə müşahidə olunan qeyri-sabit hava şəraiti və çoxsaylı təbiət hadisəsi nəticəsində ölkənin əksər bölgələrində təsərrüfatlara və əkin sahələrinə zərər dəyib. Ən çox zərər görən bölgələrdən biri də Şəki rayonudur. Elxan Usubov rayonun coğrafi şəraitinin mürəkkəb olduğundan danışaraq deyib ki, bu vəziyyət tez-tez təbiət hadisələrinin baş verməsinə səbəb olur və təsərrüfatlara zərər vurulması ilə nəticələnir. E.Usubov fermerləri belə hadisələrdən qorunmaq üçün dövlətin dəstəyi ilə sərfəli şərtlərlə təqdim edilən aqrar sığortadan faydalanmağa çağırıb.

Fuad Sadıqov isə xatırladıb ki, aqrar sığorta subsidiyalaşdırılır, yəni sığorta haqqının 50 faizini fermerə dəstək üçün dövlət ödəyir. Fond rəhbərinin sözlərinə görə, 2022-ci ildə də baş verən hadisələr səbəbindən Şəki fermerləri və təsərrüfatlara xeyli zərər dəymişdi. Həmin il rayonda 438 fermerə 348 min manat sığorta ödənişi edilmişdir. 2023-cü ildə baş verən hadisələr nəticəsində isə Şəkidə 271 fermerə ümumilikdə 694 min manat sığorta ödənişi olunmuşdur. Bu məbləğin 544 min manatı arpa, 150 min manatı buğda əkinləri üzrə ödənilib. Nəticədə Şəkidə bəzi təsərrüfatlar məhz aqrar sığorta ödənişi sayəsində təkrar əkinləri həyata keçirərək fəaliyyətini davam etdiriblər.



Qeyd edilib ki, ümumilikdə 2023-cü ildə ölkədə baş verən hadisələr üzrə fermer və təsərrüfatlara indiyədək 4,4 milyon manat ödəniş olunub. Bu proses davam edir və keçən il üzrə ödənişlərin ümumilikdə 8 milyon manata yüksələcəyi gözlənilir.

Tədbirdə Şəki-Zaqatala bölgəsi üzrə aqrar sığorta xidmətləri təqdim edilib, sadə misallarla fermerlərə izahat verilib: "Belə ki, bölgədə 1000 manatlıq tütünün sığortalanması 62 manata başa gəlir. Bunun yarısını dövlət ödəyir, nəticədə fermer cəmi 31 manat ödəniş etməklə məhsulunu sığortalaya bilər. Qoz, fındıq və ərik bağlarında 1000 manatlıq məhsulun sığortalanması fermerə 20, badam məhsulunun sığortalanması isə cəmi 7 manata başa gəlir".

Təbiət hadisələrindən zərərçəkmiş fermerlərə sığorta ödənişləri təqdim edildikdən sonra fermerlərin qaldırdığı suallar cavablandırılıb, onlara ətraflı izahat verilib.

***"Azərbaycan"***

## Yardımlıda ödənişli xidmətlərin həcmi artıb

**Ötən il Yardımlıda əhaliyə göstərilən ödənişli xidmətlər 23,3 faiz artıb. Bu barədə məlumatı rayon Statistika İdarəsinin rəisi Aydın Ağayev verib.**

Onun sözlərinə görə, 2023-cü ildə Yardımlıda əhaliyə göstərilmiş ödənişli xidmətin ümumi həcmi 2022-ci ilə nisbətən müqayisəli qiymətlərlə 23,3 faiz artaraq 24 milyon 273 min manat olub. Əhaliyə hüquqi şəxslər tərəfindən 4 milyon 230 min, fiziki şəxslər tərəfindən isə 20 milyon 43 min manatlıq müxtəlif sahələr üzrə ödənişli xidmətlər göstərilib. 2022-ci ilə nisbətən məişət xidmətinin ümumi həcmi 467 min manat artaraq 3 milyon 182 min manat olub.

İdarə rəisi bildirib ki, 2023-cü ilin ərzində ictimai iaşə sahəsi üzrə əhaliyə 3 milyon 190 min manatlıq xidmətlər göstərilib. Bu, 2022-ci illə müqayisədə real ifadədə 31,2 faiz artım deməkdir.

Ötən il rayonda 4 mehmanxana və mehmanxana tipli müəssisə qeydiyyatda olsa da, onlardan 3 müəssisə kiçik sahibkarlıq subyekti kimi əsas fəaliyyət növü üzrə xidmət göstərib.

***S.CAVADOV, "Azərbaycan"***

## Şəmkirdə konteyner istehsal olunur

**Şəmkir Rayon Kommunal Müəssisələri Kombinatının nəzdində yaradılmış istehsal sahəsində məişət tullantıları üçün konteynerlərin istehsalına başlanılmışdır.**

İstehsal sahəsində hazırlanan konteynerlərə baxış keçirilmişdir. Rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri kombinatın inzibati binasında aparılan abadlıq və yenidənqurma işləri ilə tanış olmuşlar. Məlumat verilmişdir ki, tullantıları daşımaq üçün bu ilin əvvəlində kombinata daha bir yükünü özüboşaldan nəqliyyat vasitəsi alınmışdır.

Sonra yeni istehsal sahəsində hazırlanan konteynerlər nümayiş etdirilmişdir. Bildirilmişdir ki, qısa vaxt ərzində burada 400-dən çox müasir standartlara cavab verən və tutumu 1,1 kubmetr olan konteyner hazırlanmışdır. Yaxın günlərdə həmin konteynerlər şəhərin müxtəlif yerlərinə qoyulacaqdır. Qeyd olunmuşdur ki, Şəmkir şəhərinin tələbatı tam ödəndikdən sonra rayonun kənd və qəsəbələri də bu konteynerlərlə təmin ediləcək.

***Sabir ƏLİYEV, "Azərbaycan"***



## Yeni dayanacaqlar quraşdırılır



**Sumqayıtda müasir nəqliyyat infrastrukturunun yaradılması, keyfiyyətli nəqliyyat xidmətlərinin göstərilməsi, sərnişin daşınması sahəsində rahatlığın təmin olunması istiqamətində mühüm layihələr icra olunur.**

Son illər şəhərdə 200-dən çox Türkiyə istehsalı olan, müasir tələblərə cavab verən avtobus gətirilərək marşrut xətlərinə buraxılıb. Bundan əlavə, şəhərdə 100-ə yaxın yeni dayanacaq quraşdırılıb.

Bu günlər Sumqayıt Şəhər İcra Hakimiyyəti və SOCAR-ın "Azərkimya" İstehsalat Birliyinin birgə təşkilatçılığı ilə Səməd Vurğun küçəsində növbəti 8 dayanacaq qoyulub. Qeyd edək ki, Səməd Vurğun küçəsi şəhərin ən uzun küçələrindən biridir. Küçənin sənaye zonasından keçən hissəsində sakinlər ictimai nəqliyyatdan daha çox istifadə edirlər. Burada SOCAR-ın "Azərkimya" İstehsalat Birliyinin istehsal müəssisələri fasiləsiz rejimdə fəaliyyət göstərir. Təkcə həmin küçədə 3 müntəzəm marşrut xətti fəaliyyət göstərir. Gündəlik minlərlə şəhər sakini bu marşrutlardan istifadə edirlər. Quraşdırılan yeni dayanacaqlar həm sakinlərin rahatlığını təmin edəcək, həm də hərəkətin təhlükəsizliyinə səbəb olacaq. Çünki əvvəllər harada gəldi duran nəqliyyat vasitələri indi sərnişinləri yalnız dayanacaqlardan götürüb düşürəcəklər.

***A.ƏLİYEV, "Azərbaycan"***

## Qırmızı Qəsəbə və Quxuroba sakinləri rahatlığa çıxacaqlar

**Prezidentin sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Quba rayonunun Qırmızı Qəsəbə qəsəbəsini Qusar rayonunun Quxuroba kəndi ilə birləşdirən avtomobil yolunun əsaslı təmirinə başlanılıb.**

Uzunluğu 32 kilometr olan yol uzun müddət əsaslı şəkildə təmir olunmadan istifadə edildiyindən və təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Bu səbəbdən bərpasına ehtiyac yaranan yol 3-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir, o sıradan yolun hərəkət hissəsinin eni 8 metrə qədər genişləndirilir.

Hazırda layihə üzrə torpaq işləri yerinə yetirilir, yol yatağının yararsız qruntu qazılaraq çıxarılır, müxtəlif həcmdə yol yatağının genişləndirilməsi işləri icra olunur, yeni yol yatağının inşasına hazırlıq aparılır. Artıq yolun 6 kmlik hissəsində sadalanan işlər və asfalt örtüyünün alt layının döşənməsi işləri yekunlaşıb. Paralel olaraq yolboyu suların ötürülməsini təmin etmək üçün mövcud dəmir-beton boruların bərpası, zəruri olan yerlərdə isə müxtəlif diametrli yeni suötürücü boruların tikintisi işləri yerinə yetirilir.

"İnşaat Norma və Qaydaları"na əsasən, layihənin sonuncu mərhələsində yeni asfalt-beton örtüyünün döşənməsi, avtobus dayanacaqlarının, yol nişanlarının quraşdırılması və yolun üfüqi nişanlanma xətlərinin çəkilişi aparılmaqla yol müasir görkəmdə istifadəyə veriləcək. Avtomobil yollarının yenidən qurulması yolboyu yaşayan minlərlə vətəndaşın rahat gediş-gəlişini təmin etməklə adıçəkilən kəndlər arasında nəqliyyat əlaqəsini xeyli yaxşılaşdıracaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***






# XX əsrin faciəsi - Xocalı soyqırımı













## Tbilisidəki Cümə məscidində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

**Azərbaycanın Gürcüstandakı səfirliyi Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar silsilə tədbirlərə start verib.**



Hər il olduğu kimi, bu il də paytaxt Tbilisidə və Gürcüstanın bölgələrində səfirliyin dəstəyi və təşkilatçılığı ilə, eləcə də icma üzvləri tərəfindən müxtəlif anım tədbirləri keçirilir. AZƏRTAC xəbər verir ki, belə tədbirlərdən biri fevralın 23-də Tbilisidəki "Cümə" məscidində təşkil olunub.

Məsciddə Xocalı faciəsi qurbanlarının və şəhidlərimizin ruhuna dualar oxunub. Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Etibar Eminov xütbə oxuduqdan sonra Cümə namazı qılınıb. Cümə namazında təkcə Gürcüstanda yaşayan azərbaycanlılar deyil, bu ölkədə yaşayan, işləyən, təhsil alan Türkiyə, Pakistan, İran, Əfqanıstan, Hindistan, Malayziya, Qazaxıstan, Rusiya, Özbəkistan, Banqladeş və digər ölkələrdən minə yaxın müsəlman iştirak edib.

Səfirliyin əməkdaşları, məscidin imamları və azərbaycanlı jurnalistlər xarici ölkələrdən olan tələbələrə Xocalı soyqırımı ilə bağlı məlumat veriblər.

Cümə namazından sonra Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi və təşəbbüsü ilə ehsan verilib, ehtiyacı olanlara yardım göstərilib.

## Xocalı soyqırımının qurbanları anıldı





**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirdə AİI-nin müəllim və tələbə heyəti, o cümlədən əməkdaşları iştirak ediblər.**

Ali təhsil müəssisəsinin rektoru, dosent Aqil Şirinov bu qətliamın dünyada görünməmiş ən dəhşətli soyqırımı olduğunu, 32 il bundan öncə Xocalı sakinlərinin xüsusi amansızlıqla qətl edildiklərini diqqətə çatdırıb. O qeyd edib ki, Xocalıda baş vermiş qətliam bilərəkdən və düşünülmüş şəkildə həyata keçirilib. Xocalı faciəsini törədənlər türk düşmənçiliyi ilə böyüdülən ermənilərdir.

İnstitut rəhbəri daha sonra bildirib ki, Xocalı soyqırımına dünya səviyyəsində hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.

A.Şirinov nəzərə çatdırıb ki, Xocalı şəhidlərinin ruhu şaddır, artıq tam olaraq suverenliyimizi bərpa etmişik. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti, qüdrətli və rəşadətli ordumuzun şücaəti sayəsində torpaqlarımızı düşmən tapdağından azad etmişik.

İnstitutun İslamşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Rəşad Mustafa "Xocalı soyqırımı - "Böyük Ermənistan" irqçiliyinin təzahürü kimi" mövzusunda çıxış edib. R.Mustafa Azərbaycan xalqına qarşı işğalçılıq və soyqırımı siyasətinin davamı olan Xocalı faciəsindən bəhs edib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya erməni cəlladlarının hücumu nəticəsində xüsusi qəddarlıqla qətlə yetirilən azərbaycanlılar arasında çox sayda yaşlı insan, qadın və uşaqlar olmuşlar. O, həmçinin mülki əhalinin itkin düşdüyünü, əsir götürüldüyünü, ailələrin xüsusi amansızlıqla məhv edildiyini nəzərə çatdırıb. Məruzəçi bildirib ki, Xocalı qətliamı Milli Qəhrəman Çingiz Mustafayevin çəkdiyi şəkillərdə, həmçinin xarici fotoqrafların lentə aldıqları kadrlarda öz əksini tapıb, bütün dünyaya nümayiş olunub. Buna baxmayaraq, Xocalı soyqırımını hələ də tanımayan, ikili standartlarla yanaşan ölkələr var.

R.Mustafa vurğulayıb ki, Azərbaycanın 48 şəhər və rayonunda köç salan xocalılılar 500-600-dən çox kənd, sanatoriya, düşərgə və xüsusi evlərdə məskunlaşmışlar. Onlar yaxın zamanlarda Xocalıya qayıdacaqlar.

*"Azərbaycan"*




## Fləşmob Xocalı soyqırımının 32-ci ildönümünə həsr edilib




**Fevralın 23-də Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş 5 minə yaxın tələbənin iştirakı ilə "NEVER FORGET!" adlı fləşmob keçirilib.**

AZƏRTAC xəbər verir ki, fləşmobun əsas məqsədi gənclərə Xocalı reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında dəstək göstərilməli olduğunu aşılamaq, faciə qurbanlarının xatirəsini yad etmək olub.

Keçirilən fləşmob gənclərin marağına səbəb olub.

## Tallində və Bratislavada Xocalı soyqırımının ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib

Estoniyanın paytaxtı Tallində yerləşən İşğal və Azadlıq Muzeyində Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

Azərbaycanın Estoniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, anım tədbirində hər iki ölkənin parlamentinin deputatları, Türkiyə, Qazaxıstan, Moldova, Çin, Braziliya və Şimali Makedoniyanın bu ölkədəki səfirləri, həmçinin digər diplomatik nümayəndəliklərin təmsilçiləri, ictimai xadimlər, elm adamları, diaspor nümayəndələri və gənc fəallar iştirak ediblər.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən səfir Anar Məhərrəmov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, Xocalı şəhərində yaşayan dinc və günahsız azərbaycanlılara qarşı xüsusi amansızlıqla hərbi cinayət törətdiyi barədə ətraflı məlumat verib.

Vurğulanıb ki, bəşəriyyətə qarşı törədilən bu dəhşətli cinayət cəzasız qalmamalı və dünya ictimaiyyəti tərəfindən pislənilməlidir. Bir çox ölkə tərəfindən artıq dövlət və ya parlament səviyyəsində Xocalı faciəsinin soyqırımı kimi tanındığı, bu qanlı cinayətin pislənildiyi iştirakçıların diqqətinə çatdırılıb. Bu baxımdan Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu tərəfindən bu soyqırımını qınayan bəyanatın hər il qəbul edilməsinin önəmi vurğulanıb.

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının artıq ədalət zəfəri çaldığı xüsusi qeyd edilib.

Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri xanım Riina Solman Xocalıda törədilmiş bu qətliamı insanlığa qarşı qanlı cinayət kimi qiymətləndirib, Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı dostluq qrupu tərəfindən qəbul edilən bəyanatın vacibliyini və önəmini vurğulayaraq bəyanatın mətnini oxuyub.

Azərbaycan-Estoniya parlamentlərarası dostluq qrupunun sədri, deputat Jalə Əhmədova çıxışında qeyd edib ki, insanlığa, bəşəriyyətə qarşı törədilmiş Xocalı faciəsi dünya tarixində görünməmiş soyqırımı aktıdır. Bütün dünya ölkələri bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına deyil, həm də bütün bəşəriyyətə qarşı həyata keçirilib və soyqırımın günahkarları beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər.






Sonra Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilmiş "Xocalı soyqırımı" sənədli filmi və Xocalı soyqırımının dəhşətlərini əks etdirən foto-sərgi nümayiş olunub.

* * *

Azərbaycanın Slovakiyadakı səfirliyi tərəfindən Bratislava şəhərində bu ölkədə yaşayan soydaşlarımızın iştirakı ilə Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisi olan Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi tədbirdə birdəqiqəlik sükutla yad edilib.

Xocalıda və digər yaşayış məntəqələrində Ermənistan silahlı qüvvələrinin bölmələri və erməni terrorçu dəstələrinin törətdiyi cinayətlərdən söz açan səfir Vüsal Abdullayev bu qanlı əməllər nəticəsində çox sayda dinc azərbaycanlının milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirildiyini və amansız işgəncələrə məruz qaldığını qeyd edib. O, erməni faşizminin təzahürü və bariz nümunəsi olan Xocalı soyqırımının təkcə Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasətinin tərkib hissəsi deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayət olduğunu bildirib.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması məqsədilə davamlı olaraq həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətindən danışan diplomat Xocalıda baş vermiş bu qanlı cinayətin heç vaxt yaddaşlardan silinməyəcəyini vurğulayıb.

Erməni işğalçılarının Azərbaycan xalqının mübarizə əzmini qıra bilmədiyini və rəşadətli ordumuzun Xocalı qurbanlarının qisasını döyüş meydanında aldığını qeyd edən səfir 2023-cü ilin sentyabrın 19-da keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində azad olunmuş Xocalı şəhərində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin oktyabrın 15-də Azərbaycanın Dövlət Bayrağını ucaltdığını bildirib.

Daha sonra Azərbaycan Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının çəkdiyi Xocalı soyqırımına həsr olunmuş sənədli televiziya filmi nümayiş etdirilib.

Tədbir gənc Azərbaycan musiqiçisi Fərid Feyzullayevin (violin) ifasında konsert-rekviyem proqramı ilə davam edib. Konsert-rekviyemdə görkəmli Azərbaycan bəstəkarları Fikrət Əmirov, Arif Məlikov, Tofiq Quliyevin, habelə Antonio Vivaldinin əsərləri təqdim edilib.

# Qarabağ zəfərindən "Qarabağ" zəfərinə...



## Milli iftixarımız Ağdamda, Şuşada, Xankəndidə dalğalanan qələbə bayrağımızı Avropada da təmsil edir

Tarixi "Braqa" zəfərindən bir neçə saat öncə...

Son taktiki təhlillərdən sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov futbolçuları ilə oynanılacaq qarşılaşma barədə söhbətləşir və bunun Azərbaycan futbolu adına önəmindən bəhs edir. Yekunda səsləndirdiyi bir cümlə isə futbolçularda əlavə motivasiya yaradır: "Bu oyun Ali Baş Komandana, veteranlara, qazilərə həsr edilsin!"



Bu əzmlə, bu iradə və inamla Ağdam klubu "Braqa" ilə oyuna çıxdı. "Qarabağ" təkcə futbol oynamadı, həm də döyüşdü. Milyonlar televiziya qarşısında, on minlər isə stadionda futbolçularla sinerji yaratdı. Nəticəsi isə Azərbaycan futbol tarixində ilkə çevrildi. Avropanın ən güclüləri sırasına daxil olduq. UEFA Avropa Liqasının pley-off mərhələsində Portuqaliya təmsilçisinə hər iki oyunun nəticəsinə əsasən 6:5 hesabı ilə qalib gələn "Qarabağ" 1/8 finala yüksəldi.

"Qarabağ" Azərbaycan idmanında, onun dünyada öz sözünü deməsində sözün əsl mənasında, fövqəladə işlərə imza atmaqdadır. Cəmiyyət də haqlı olaraq bunu təqdir edir və bu da haqq qazandırır ki, "Qarabağ" Azərbaycanın ən populyar futbol klubudur. Elə Azərbaycanın sərhədlərindən kənarda da ən çox tanınan futbol komandası məhz Ağdam klubudur. Bu nailiyyətə isə gərgin zəhmət, əzmlə çalışmaq nəticəsində nail olunub.

Hamı səfərdəki möhtəşəm qələbədən sonra asan qarşılaşma gözləyirdi, amma belə olmadı. "Braqa" ilk oyunda məğlubiyyətdən dolayı ilk dəqiqələrdən oyunu meydançanın "Qarabağ"a aid hissəsində keçirərək daha erkən qol vurmağa çalışdı ki, qarşılaşmaya nəzarəti tam ələ almaq imkanı yaransın. Amma ağdamlı futbolçular bunun qarşısını almaq üçün həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli oldular. Xüsusilə meydançanın mərkəzində gedən mübarizədə qalib ayrılan tərəf üstünlük qazanacaqdı. "Qarabağ" bunu etməyi bacardı. Sürətli oyun fonunda "Braqa"da xətlərarası balans pozuldu. Portuqaliya klubu risk edib ilk hissədə hücuma çıxmadı. Xüsusilə komandamızın heyətində Marko Yankoviçin bu keçid oyunlarında performansı möhtəşəm idi. Bu ötürmələr fonunda Zubir, Benziya və Juninyoya yaxşı fürsətlər yarandı ki, komandamız bunlardan maksimum yararlandı.

Matçın ikinci hissəsində "Qarabağ"ın futbolçusu Elvin Cəfərquliyevin qırmızı vərəqə alması bütün planları alt-üst etdi. Azlıqda qalan ağdamlılar topu rəqibə verib daha çox müdafiə olunmaq taktikası seçdilər. Nəticədə say üstünlüyü ilə hücumlarının kəsərini artıran "Braqa" iki qol vuraraq görüşün əsas vaxtında qələbə qazandı-2:0.

İki oyunun nəticəsinə əsasən bərabərlik qeydə alındığından hakim qalibi müəyyənləşdirmək üçün 30 dəqiqə əlavə vaxt təyin etdi. Bu vaxtda da tərəflərin vurduqları qollar sayəsində matç "Braqa"nın 3:2 hesablı qalibiyyəti ilə yekunlaşdı. Portuqaliyada 4:2 hesabı ilə möhtəşəm qələbə qazanan Ağdam təmsilçisi iki oyunun nəticəsinə əsasən adını 1/8-ə yazdırdı.

Uğursuzluq zolağındakı Azərbaycan futboluna töhfə verməyə çalışan, qazandığı qələbələrlə azarkeşlərimizi sevincə qərq edən, yerli gənc futbolçulara şans verməklə onlarda qalibiyyət əzmini formalaşdıran, ən əsası Azərbaycan və Qarabağ adını daim uca tutan Qurban Qurbanovun "Qarabağ"ı artıq azad Ağdamı təmsil edir.

Ən önəmli məqamlardan biri isə budur ki, son 10 ilə nəzər yetirdikdə görərik ki, "Qarabağ" təkcə futbol oynamadı, eyni zamanda getdiyi hər ölkədə Qarabağ həqiqətlərini dünyaya çatdırdı. İşğal altında olan şəhəri - Ağdamı təmsil etdiyini hamı bildi. Yüz milyonların qarşısında nümayiş etdirdiyi oyunlarla döyüşkən komanda olduğunu, mübarizliyin hər bir azərbaycanlının ruhunda yer aldığını göstərdi.

Qarabağ Zəfərindən sonra isə komandamız Avrokubok matçına alnıaçıq, üzüağ yollanır. Bu da komandaya əlavə bir motivasiya verir, qalib ölkənin azad şəhərini təmsil edən futbolçular kimi qarşılaşmalara köklənir. Elə bunun nəticəsidir ki, bu mövsüm tarixdə ilk dəfə Avropa Liqasında 16 ən güclü komandalar sırasında "Qarabağ" yer alır.

"Qarabağ"ın qazandığı uğurlarda düzgün legioner transferi siyasətini də vurğulamaq yerinə düşərdi. Komandaya istənilən sayda yaxşı legioner futbolçu transfer etmək olar. Necə deyərlər, puluna minnət... Lakin elə məsələlər var ki, dəyəri maddiyyatla ölçülmür. Vətənpərvərliyi, nizam-intizam, məsuliyyət və mərifət hissini isə aşılamaq lazımdır! Məhz Ağdam klubu illərdir ki, bu transfer siyasətindən vaz keçmir. Nəticədə həmin legionerlər də bizlərdən biri olurlar. İkinci Vətən müharibəsində bizimlə bərabər sevinib, bizimlə bərabər həyəcan keçiriblər. Ali Baş Komandanın zəfər müjdəli "tvit"lərini öz qələbələri kimi dünyaya çatdırıblar.

"Qarabağ" Azərbaycan çempionatında Ağdamı təmsil edir. Artıq xeyli müddətdir ki, "Qarabağ" dünya miqyasında qalib Azərbaycanı tanıdır.

Bundan sonra komandanın yeni missiyası var. Milli iftixarımız Ağdamda, Şuşada, Xankəndidə dalğalanan Qələbə Bayrağımızı artıq Avropada təmsil edir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# "Qarabağ" "alman şiri"nə qarşı

**Dünən UEFA Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində keçirilən püşkatma mərasimində tarixində ilk dəfə bu mərhələyə yüksələn "Qarabağ"ın rəqibi müəyyənləşib. Püşkün nəticəsinə əsasən, Azərbaycan çempionu Almaniyanın "Bayer" klubu ilə üz-üzə gələcək.**

Xatırladaq ki, ləqəbi "alman şiri" olan "Bayer" "Qarabağ"la Avropa Liqasının H qrupunda mübarizə aparıb. Almaniya klubu qrup lideri kimi 1/8 finala yüksəlib. "Qarabağ" isə qrupda 2-ci yeri tutaraq pley-offa vəsiqə qazanıb.

Qeyd edək ki, komandalar arasında ilk matç martın 7-də Bakıda, cavab görüşü isə martın 14-də səfərdə reallaşacaq.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 30 dekabr 2023-cü il tarixdə elanı verilmiş Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Oğuz, Balakən, Neftçala, Beyləqan, Şirvan, Ağsu və Salyan rayonlarında 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar keçirilən açıq tenderdə qiymət təkliflərinin son verilmə tarixi və vaxtı 2024-cü il 26 fevral saat 18:00-dan 2024-cü il 04 mart saat 18:00-dək uzadılsın. Tender təkliflərinin açılış tarixi və vaxtı 2024-cü il 05 mart saat 15:00 kimi nəzərə alınsın.

***Tender komissiyası***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ağalı kəndində Şərqi Zəngəzur Regional Məşğulluq filialının xidmət şöbəsi istifadəyə verilib




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin dayanıqlı məşğulluğunun təminatı sahəsində tədbirləri davam etdirir.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əhalinin məşğulluq xidmətlərinə əlçatanlığının təmini məqsədilə Zəngilan rayonunun Ağalı kəndində agentliyin Şərqi Zəngəzur Regional Məşğulluq filialının xidmət şöbəsi istifadəyə verilib.

Xidmət şöbəsində məşğulluq xidmətləri ilə bağlı müraciət edən sakinlərin qeydiyyatı aparılaraq, onların məşğulluq imkanları qiymətləndirilir. Fərdi məşğulluq proqramları tərtib edilməklə sakinlərin aktiv məşğulluq proqramlarına cəlb olunması, habelə onlara karyera məsləhəti xidmətlərinin göstərilməsi işləri aparılır.


## "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə

10 aprel 2024-cü il saat 11:00-da Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti 120 ünvanında yerləşən "Bakı Sığorta" ASC-nin Baş ofisində cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə, həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət etmək olar.

**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti 120 ünvanında yerləşən inzibati binanın 6-cı mərtəbəsi.**

***Rəhbərlik***


# İrəvandan separatçılığa dəstək davam edir

## Fransa isə dünyada sülhün pozulmasına çalışır

Azərbaycan Ordusunun ötən ilin sentyabrında kecirdiyi 23 saatlıq lokal antiterror tədbirlərindən sonra Qarabağdakı qondarma rejimin ləğvi elan olunsa da, hazırda Ermənistanda separatçıların təşkilatlanması və fəallaşması davam edir. Bunu İrəvanda üzərində "Arsax bayrağı" dalğalanan "Arsax nümayəndəliyi"nin saxlanması, Hayastanın sabiq xarici işlər naziri Vardan Oskanyanın rəhbərliyi ilə "Arsax xalqının vətənə qayıdışı"nı koordinasiya edəcək komissiyanın yaradılması, 20 fevral - Qarabağda separatçı hərəkatın başlanmasının ildönümü günü "Arsax" "rəhbərləri"nin yenidən üzə çıxması və digər separatçı hərəkətlər sübut edir.



Ermənistan mətbuatında yayılan məlumatlara əsasən, keçmiş separatçı rejimin "nümayəndələri"nin gizli olaraq Ermənistan parlamentinin fraksiyaları və siyasətçilərlə çoxsaylı görüşlər keçirməsi və digər bu səpkili fəaliyyət revanşistlərin və ekstremistlərin mənfur planlar qurmasına dəlalət edən təkzibolunmaz faktlardır.

Təbii ki, bütün bunlar Hayastan lideri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması haqda bəyanatlarına ziddir və Ermənistanın danışıqlar prosesinə qeyri-səmimi yanaşmasını növbəti dəfə sübut edir.

Ermənistan Nikol Paşınyan bəyan etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, onda öz ərazisində Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən separatçıların fəaliyyətinə dərhal son qoymalı idi. Lakin hələ ki, bu, baş vermir.

Əlbəttə ki, buna qarşı Azərbaycan tərəfi biganə qalmayacaq və Ermənistanda separatçı rejimin qalıqlarının saxlanması davam edərsə, Azərbaycanda da Qərbi Azərbaycanın mühacirətdə hökumətinin formalaşdırılmasına başlanılacaqdır.

Bu arada, Paşinyanla Parisdə keçirilən görüşdən sonra Emmanuel Makronun Fransanın Ermənistana hərbi texnika göndərəcəyi haqda açıqlaması bir daha göstərir ki, Paris Ermənistanı yeni Ukraynaya çevirir. Fransa dünən Ermənistana "müdafiə" silahlarının növbəti partiyasını göndərib.

Bu barədə məlumatı "Le Figaro" qəzeti yayıb. Qeyd olunur ki, silah partiyasına gecəgörmə cihazları, GM200 radar stansiyaları daxildir.

Fransa Ermənistana ilk silah partiyasını - "Bastion" tipli texnikanı ötən ilin son aylarında göndərib.

Tərəflər bu barədə 2023-cü ildə razılığa gəliblər. Bu il Fransa və Ermənistan silahlı qüvvələri arasında hərbi təlimlər də planlaşdırılır.

Son məlumata əsasən, Ermənistan hakimiyyətinin artilleriya ilə bağlı müraciətlərinə əsasən, rəsmi Paris SEZAR artilleriya sistemlərinin tədarükü imkanlarını araşdırır. Bundan əlavə, Mistral 3 zenit-raket komplekslərinin tədarükü ilə bağlı tərəflər arasında danışıqlar aparılır. Beləliklə, heç bir kəsə sirr deyil ki, Fransa dünyada sülhün pozulmasına çalışır.

Ancaq Paşinyan və digər ermənilər unutmamalıdırlar ki, vaxtilə Qərb dairələri Vladimir Zelenskini də tərifləyə-tərifləyə Ukrayna dövlətini və millətini qırğına verdilər, indi isə kənardan izləyirlər. Buna görə də şübhə yoxdur ki, eyni aqibət Ermənistanı da gözləyir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4206
Sifariş 400
Qiyməti 60 qəpik